Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

26 SENTYABR 2019-cu il

№ 171 (4069)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# «AZƏRPOÇT» BANK HESABLARINI TALAYAN KİBERCİNAYƏTKAR QRUPUN FƏALİYYƏTİNƏ DAİR ANONS VERDİ...

səh. 6

Azərbaycan Ermənistan üzərində əzici hərbi üstünlüyünü daha da artıracaq

səh. 8

Qarabağ münaqişəsinin həlli istiqamətində mühüm dəyişikliklər...

səh. 9

Paşinyanla Ümumermməni katolikosluğunun yeni müharibəsi rəsmən başlayır

səh. 7

Ermənistanda demoqrafik fəlakətə dair tutarlı sübut - "dilənçi" büdcə ilə hər doğulan uşağa 600 dollar müavinət...

səh. 10

Kremlin Ermənistana artıq yük kimi baxmasının nümayişi getdikcə güclənir

səh. 11

Radikal gənclərin siyasi fəalları arasında Əli Kərimliyə antipatiya güclənir, konkret faktlar...

səh. 5

Yol kənarlarında açıq çərəz satışları gigiyena normalarına uyğundurmu...

səh. 15

## Əli Kərimlisiz və Razi Nurullayevsiz vahid AXCP... - sadə cəbhəçilər arasında böyük ajiotaj var...

səh. 5



KTMT rəhbərliyində Qarabağ probleminə münasibətdə yeni baxış - «bizə də təhlükədir»...

səh. 3

Bakıda yeni dilənçilik «tryukları» - yaxşı geyim-kecim, xəstəxanaya pul, rayondan gələndə kisəni itirdim... sair...

səh. 14

Əqli Mülkiyyət Agentliyi şəxsi ad-soyadları da brend statusu ilə qeydə alır, məsələnin hüquqi mübahisəli tərəfləri...

səh. 12

Heydər Əliyev Fondu yeni beynəlxalq status qazandı

səh. 4



Ermənilərin vurduğu hərbi qulluqçumuza görə qisas alınmasının yolu...

səh. 3



Paşinyan premyerliyə gələndən ölkədə xarici investisiya ilə tikinti 20 faiz azalıb

səh. 10



Baş həkim cinayət törətmiş ruhi xəstə ilə bağlı çox mətləblərə aydınlıq gətirdi

səh. 6



İcbari tibbi sığorta özəl tibb müəssisələrində qiymətlərə necə təsir edəcək...

səh. 15





## Müdafiə Nazirliyi Azərbaycana məxsus PUA-nın vurulması xəbərini dezinformasiya adlandırdı

**Ermənistan kütləvi informasiya vasitələrində guya Azərbaycana məxsus PUA-nın vurulması barədə növbəti dezinformasiya xarakterli məlumat yayılıb. Müdafiə Nazirliyindən "Trend"in sorğusuna cavab olaraq bildirilib ki, bu xəbər həqiqətə uyğun deyil.**

Nazirlikdən qeyd edilib ki, Azərbaycan Ordusunun bölmələrinə məxsus PUA-lar tam tərkibdə sıradadır və itki yoxdur: "Təqdim olunan fotodakı PUA-nın hazırda işğal olunmuş ərazilərdə Ermənistan SQ-nin keçirdiyi təlimlərdə "şərti düşmən" hədəfi kimi istifadə edilən kobud formada hazırlanmış maket olduğu istisna edilmir".



## Nazir Vilayət Eyvazov Sabunçu polisinin 3 yüksək rütbəli əməkdaşını işdən çıxardı

**Bakının Sabunçu rayon Polis İdarəsinin 3 vəzifəli şəxsi vəzifəsindən azad olunub. "Trend"in məlumatına görə, bu barədə Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov müvafiq əmrlər imzalayıb.**

Nazirin əmrləri ilə Sabunçu Rayon Polis İdarəsinin 14-cü Polis Bölməsinin rəisi, polis polkovnik-leytenantı Zaur Məmmədov, onun müavini, polis mayoru İlkin Ələkbərov və sahə müvəkkili işlərində yol verdikləri ciddi nöqsanlara görə tutduqları vəzifədən azad olunaraq sərəncama götürülüblər.

## İsraildən vətəndaşlarına təəccüblü xəbərdarlıq - Azərbaycana səfər etməyin...

**İsrailin Milli Təhlükəsizlik üzrə Dövlət Qərargahı israillilərə Azərbaycan və Rusiyaya getməyi tövsiyə etmir. Baki-xeber.com Sputnik Azərbaycan-a istinadən məlumat verir ki, bu barədə İsrail KİV xəbər verir.**

Məlumata əsasən, qərargah sentyabr-oktyabr aylarında keçirilən bayramlarla (Roş ha-Şana, Yom-kipur və Sukkot) əlaqədar turistlər üçün xəbərdarlıq məlumatı yayıb.

Xəbərdarlıqda israillilərə bu bayramlarda Sinay yarımadasına getmək məsləhət görülmür. Bundan əlavə, qərargah ölkə vətəndaşlarına Türkiyə, Hindistan, Pakistan, İordaniya və Misirə də getməməyi məsləhət görür. Məlumatda qeyd olunur ki, bu ölkələrdə islamçı-terrorçuların inkişaf etmiş infrastrukturu var.

Ümumilikdə qərargahın yaydığı məlumatda bu və ya digər dərəcədə 40 ölkə təhlükəli ölkələr siyahısına daxil edilib. Məlumatda "İranı əhatə edən ölkələrə" - Azərbaycan, Gürcüstan, Ermənistan, Türkmənistan, Fars körfəzi ölkələri, Mərkəzi Asiya regionuna getməmək tövsiyə edilir.

Ümumilikdə Azərbaycan Mərakeş, Nigeriya, Şri-Lanka və Omanla birgə 4-cü dərəcəli təhlükəli ölkələr siyahısına daxil edilib. Belə ki, qərargah ehtiyac olmadan bu ölkələrə səfər etməməyə, səfər edəcəkləri təqdirdə isə təhlükəsizliklə bağlı tədbirlər görməyə çağırıb.

Qərargah həmçinin xatırladıb ki, israillilərin İraqa, Suriyanın kürd regionlarına, Livan, Səudiyyə Ərəbistanı, Yəmən və İrana səfəri qanunla qadağandır.

**Aydın Quliyev Vurğun Əyyubun vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir, dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!**

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzinin açılışında iştirak ediblər

**Sentyabrın 25-də Bakı Nəqliyyat Agentliyinin "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzinin açılışı olub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.**



Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimli "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzində yaradılan şərait barədə dövlət başçısına və birinci xanıma məlumat verərək qeyd edib ki, Heydər Əliyev və Ziya Bünyadov prospektlərinin kəsişmə nöqtəsi, Böyükşor qovşağı, eləcə də metronun "Koroğlu" stansiyasının yaxınlığındakı bu Nəqliyyat Mübadilə Mərkəzi ilk HUB olaraq 2016-cı ildə təşkil edilib. Pilot layihə olaraq mərkəz əvvəlcə yüngül konstruksiyalardan ibarət hazırlanmışdı. Lakin sonradan əhalidən gələn müraciətlərlə əlaqədar "Koroğlu" HUB 2019-cu ildə əsaslı şəkildə yenidən qurulub və burada müasir nəqliyyat infrastrukturu yaradılıb.

Prezident İlham Əliyev deyib ki, "vətəndaşların rahatlığı hər şeydən üstündür. Ona görə ən müasir avtobuslar alınır, nəqliyyatla və təhlükəsizliklə bağlı çox ciddi tədbirlər görülür. Bu işləri davam etdirin. Şəhərimizin hər bir yerində ən yüksək səviyyəli nəqliyyat şəraiti yaradılmalıdır".

Məlumat verilib ki, paytaxtın yollarında yeni səkilər salınıb, görmə əngelli vətəndaşlar üçün şərait yaradılıb. Hökumət evinin arxasında pilot layihə kimi velosiped yolunun salınması nəzərdə tutulur. Yolun 100 metrlik hissəsi artıq hazırdır. İndi velosiped yolunun örtüyü ilə bağlı təcrübələr aparılır. Bu yolun salınmasında əsasən yerli materiallardan istifadə edilir. Bakı şəhərində ümumilikdə 18,5 kilometrlik, ilk mərhələdə isə 7,5 kilometrlik velosiped yolunun salınması nəzərdə tutulur.

Sonra dövlət başçısı və birinci xanım platformalarda və gözləmə zallarında yaradılan şəraitlə maraqlanıblar. Bildirilib ki, burada dörd platformadan ibarət avtobus terminalı inşa edilib. Platformalarda müasir informasiya texnologiyaları avadanlığı, havalandırma sistemi ilə təchiz edilmiş 10 gözləmə zalı var. Ətraf kənd və qəsəbələri şəhər mərkəzi ilə birləşdirən 30 müntəzəm marşrut xətti üzrə 430-a yaxın avtobusun fəaliyyət göstərdiyi mərkəzin xidmətlərindən gün ərzində 270 min nəfərə yaxın sərnişin istifadə edəcək. Prezident İlham Əliyev burada yaradılmış şəraiti yüksək qiymətləndirib.

Sonra dövlət başçısı və birinci xanım Türkiyənin BMC şirkətinin istehsalı olan avtobusa baxıblar. Prezident İlham Əliyev əlavə müasir avtobusların alınması ilə bağlı tapşırıqlarını verib.

*Baki-xeber.com*

# Tural Gəncəliyev Paşinyana - "Brayzanı ittiham etmək əvəzinə, Helsinki sənədləri ilə tanış ol"

**"Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması"nın rəhbəri Tural Gəncəliyev ATƏT-in ABŞ-dan olan keçmiş həmsədri Metyu Brayzanın guya münaqişə ilə bağlı məsələlərdən xəbərdar olmadığı haqda Ermənistanın baş naziri Nikol Paşinyanın sərsəm bəyanatına münasibət bildirib.**



"Trend"in məlumatına görə, T.Gəncəliyev jurnalistlərə açıqlamasında bildirib ki, yaxşı olardı, N.Paşinyan Helsinki sənədləri ilə tanış olsun: "Buradan bir daha çatdırıram ki, Ermənistan-Azərbaycan münaqişəsində iki maraqlı tərəf var. Ermənistanın baş naziri Nikol Paşinyan bir neçə gün öncə növbəti sərsəm açıqlama ilə gündəmə çıxaraq ATƏT-in ABŞ-dan olan keçmiş həmsədri Metyu Brayzanın guya münaqişə ilə bağlı məsələlərdən xəbərdar olmadığını irad tutub. Eyni zamanda, yenidən Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qeyri-konstruktiv danışıqların ruhuna zidd bəyanat verib və danışıqlarda Dağlıq Qarabağ ermənilərinin xüsusi bir tərəf kimi rolunu qabardıb.

Biz də Paşinyanın bəyanatına cavab olaraq bildiririk ki, onun qısa yaddaşını təzələməyə ehtiyac var. Paşinyanın Helsinki sənədləri ilə tanış olmadığı açıq-aydın görünür. O, həmin sənədlərlə tanış olsaydı, görərdi ki, Azərbaycanlı icma da burada maraqlı tərəfdir. Buradan onun məlumatsızlığı və ümumiyyətlə proseslərdən xəbərdar olmadığı görünür. Metyu Brayzanı ittiham etmək əvəzinə, bu sənədlərlə tanış olsaydı, daha yaxşı olardı".

T.Gəncəliyev, həmçinin, Dağlıq Qarabağın erməni icmasına müraciət edib: "Mən onları həm təcavüzkar Ermənistan, həm də Dağlıq Qarabağda hökm sürən cinayətkar xunta rejiminin əsarətindən xilas olmağa çağırıram. Onları bizim səsimizə səs verərək münaqişənin tənzimlənməsi və sülh yolu ilə həll olunması istiqamətində əsarətdən qurtulmağa səsləyirəm.

Əgər onlar düşdükləri əsarətdən xilas olarlarsa, bu, aparılan danışıqlara da müsbət təsir edər və iki icmanın gələcəkdə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində kömək göstərmiş olar".

# Ermənilərin vurduğu hərbi qulluqçumuza görə qisas alınmasının yolu...

**Hər zaman olduğu kimi, ermənilər Dağlıq Qarabağla bağlı olan budəfəki danışıqlar ərəfəsində də təxribata əl atdılar. XİN rəhbərlərinin görüşü ərəfəsində cəbhədə Azərbaycan hərbçisi öldürüldü. Azərbaycan Xarici İşlər Nazirliyi neytral zonada vurulan əsgərimiz və ABŞ-da həmsədrlərlə görüş haqda qısa açıqlama yayıb.**

Açıqlamada deyilir: "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqların hazırkı vəziyyətini müəyyən etmək üçün iki ölkənin xarici işlər nazirlərinin Nyu-Yorkda baş tutan görüşü yenidən təmas xəttində Azərbaycanlı hərbi qulluqçunun qətlə yetirilməsi ilə yadda qaldı. Azərbaycan bütün vasitələrlə bu hadisəni izləyəcək və onu törədənlər cəzalandırılacaq.

Nazirlərin görüşünə gəldikdə isə, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bölgəyə sülh gətirmək və bölgədə beynəlxalq norma və prinsiplərə, qaydalara hörmət edilməsi ilə bağlı səylərini genişləndirməli olduqları anlayışı ilə mövcud danışıqlar üzrə, sadəcə, fikir mübadiləsi aparılıb".

Xatırladaq ki, sentyabrın 22-də yolu azaraq düşmənlə üzbəüz mövqelər arasındakı ərazidə Azərbaycan Ordusunun əsgəri Abdulrəhmanov Ramin Şövkət oğlu vurulub. BQXK-nin köməyi ilə onun meyiti təmas xəttindən götürülüb.

Xarici İşlər Nazirliyinin rəsmi bəyanatında qeyd edilir ki, əsgərimizin ölümünə görə düşməndən qisas alınacaq. Bunun üçün hansı yollar nəzərdə tutula bilər?

Hərbi-siyasi ekspert İbrahim Rüstəmli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, diplomatiyamız adından belə bir bəyanatın verilməsini təqdir edir: "Biz onsuz da bilirik ki, Azərbaycan tərəfi heç vaxt düşmənə "borclu" qalmır. Hər zaman onlar törətdikləri təxribatların layiqli şəkildə cavabını alırlar. Biz adətən bənzər məzmunlu bəyanatları Müdafiə Nazirliyinin dilindən eşitməyə adət etmişik. Diplomatiyamızın belə sərt danışması ciddi mətləblərdən xəbər verir. Cəzalandırmaq deyəndə, təbii ki, hərbi vasitələr nəzərdə tutulur. Bu, o anlama gəlir ki, sabah Azərbaycan tərəfi istənilən erməni zabiti və ya əsgərini öldürməklə doğru addım atmış olduğunu sübut edəcək. Bunu dövlətimizin kəskin mövqeyi kimi dəyərləndirə bilərik. Belə başa düşürük ki, danışıqların pozulmasına yönəlik bu cəhdlər artıq mütləq layiqli cavabını almalıdır. Çünki iki yol var, ya diplomatik, ya da hərbi. Görünür, ermənilər ikinci yolu seçməyə maraq göstərirlər. Mən bu qənaətdəyəm ki, ermənilər ölkəmzin bu cür sərt siyasi mövqeyinin fərqindədirlər. Bu həm də Azərbaycanın səbr kasasının dolması anlamına gəlir. Buna bənzər addımlarla bağlı daha sərt addımlar atılacaq.

***İbrahim Rüstəmli:*** *"Azərbaycan öz torpaqlarını müharibə yolu ilə azad etməyə çox yaxındır və bu barədə ciddi düşünür"*




Söhbət yalnız hərbi yolla qisasdan və cəzalandırmadan gedə bilər. Cəzasızlıq özbaşınalıq, hegemonluq yaradır. Ermənilər zaman-zaman belə təxribatlar törədib, cavabsız da qalmayıblar. Bundan sonra belə davam etməz. Yəni biz heç də hər zaman onların hansısa təxribat törətməsini gözləyib, cavab vermək haqda düşünməməliyik. Hesab edirəm ki, bütün bu yaşananlar bir daha sübut edir ki, Azərbaycan öz torpaqlarını müharibə yolu ilə azad etməyə çox yaxındır və bu barədə ciddi düşünür".

***Məhəmmədəli QƏRİBLİ***

# KTMT rəhbərliyində Qarabağ probleminə münasibətdə yeni baxış - "bizə də təhlükədir"...

**"Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı üzvü olan ölkələrə ciddi təhlükə yaradır". Bunu KTMT-nin qərargah rəisi general-mayor Anatoli Sidorov deyib. O, Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində aktivliyin nəzərə çarpdığını qeyd edib.**



Bununla belə, Moskva-İrəvan-Minsk-Nur-Sultan-Bişkek videokörpüsü zamanı Sidorov bildirib ki, tənzimlənməyən münaqişənin mövcudluğu KTMT üzvü olan ölkələrə ciddi təhlükə yaradır: "Qafqazda KTMT üzv ölkələrinin təhlükə mənbələrindən biri Qarabağ münaqişəsidir. Tənzimləmənin siyasi prosesləri münaqişə iştirakçıları və beynəlxalq təşkilatlar sayəsində aktivləşib".

A.Sidorov onu da qeyd edib ki, hazırda münaqişənin siyasi yolla nizamlanması aktivləşsə də, münaqişə zonasında atəşin kəsilməsi üçün hələ görüləcək çox iş var: "Bu, baş verməyənə qədər Qarabağ münaqişəsi regional təhlükəsizlik üçün əsas təhdid mənbəyi olaraq qalacaq".

***Əli Orucov:*** *"Anatoli Sidorovun məlum fikirləri proseslərin gedişindən doğan narahatlığın aydın təzahürüdür"*

Görünən odur ki, KTMT rəhbərliyi də münaqişənin indiyə qədər həll edilməməsindən narahat olmağa başlayıb. Düzdür, zaman-zaman KTMT rəsmiləri Qarabağ məsələsinə münasibət bildirib. Ancaq münaqişənin həll edilməməsinin təşkilata üzv olan ölkələrə təhdid yaratması barədə fikirlər problemə yeni baxışın olmasından xəbər verir.

Maraqlıdır, A.Sidorov bu fikirləri səsləndirərkən nəyi nəzərdə tutub? Ümumən ekspertlər bunu necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucov buna bir neçə kontekstdən yanaşdı: "KTMT qərargah rəisi general-mayor A.Sidorovun məlum fikirləri proseslərin gedişindən doğan narahatlığın aydın təzahürüdür. Rusiyanın da hərbi-siyasi elitası artıq daha dərindən anlamağa başlayıb ki, münaqişənin yenidən eskalasiyası bütün region üçün ağır fəsadlar törədə bilər. İrəvanın daimi dəstəkləyicisi olan rəsmi Moskva, istər-istəməz, daha bir münaqişəyə cəlb edilə bilər. Rusiya, Türkiyə, İran arasında əldə edilmiş hərbi-siyasi əməkdaşlıq bir anda rəqabətə və qarşıdurmaya çevrilə bilər. Başı daxili problemlərinə, iqtisadi-sosial sıxıntılara qarışan, sanksiyalardan əziyyət çəkən və Suriyada münaqişəyə milyardlarla pul xərcləyən Rusiyaya daha bir münaqişə ocağı lazım deyil. Özü də lap sərhədlərinin yaxınlığında. Bu, Rusiyaya çox baha başa gələ bilər. Ona görə də KTMT-yə təhdid deyiləndə, təbii ki, əsasən Rusiya nəzərdə tutulur. Çünki bu hərbi birlikdə təmsil olunan Belarus və Qazaxıstanın Azərbaycanın tərəfini tutacağı şübhəsizdir. Belə olan halda, KTMT-nin də daxilində parçalanma baş verə bilər. Bir sözlə, münaqişənin alovlanması bir sıra problemlərin yaranmasına yol aça bilər. Odur ki, Moskva hər vəchlə münaqişənin dondurulmasına çalışır. Azərbaycan isə bu əlverişli fürsətdən maksimum yararlanmağa çalışmalıdır".

*"Münaqişənin alovlanması bir sıra problemlərin yaranmasına yol aça bilər"*

***Vidadi ORDAHALLI***

# Heydər Əliyev Fondu yeni beynəlxalq status qazandı

***Vüqar Rəhimzadə:** "Hesab edirəm ki, Heydər Əliyev Fonduna xeyriyyəçilik fəaliyyətinə görə belə bir statusun verilməsi tam ədalətli qərardır"*

**Ölkəmizin Birinci vitse-prezidenti, UNESCO və İSESCO-nun ölkəmizdəki xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi ilə fəaliyyət göstərən Heydər Əliyev Fondunun həyata keçirdiyi xeyriyyəçilik işləri sərhəd tanımır. Fondun təşəbbüsü ilə yalnız ölkəmizdə deyil, xarici ölkələrdə də saysız-hesabsız xeyriyyəçilik işləri görülüb.**

Məlum olduğu kimi, fəaliyyətini xeyriyyəçilik prinsipləri üzərində quran və müasir dünya insanının ümid yerinə çevrilən Heydər Əliyev Fonduna Beynəlxalq Xeyriyyəçilik Forumunun "Strateji əməkdaş" statusu verilib.

Məlumatlara görə, "Çin Xalq Xarici Ölkələrlə Dostluq Assosiasiyası" və "Sülh və İnkişaf üçün Çin Dostluq Fondu" tərəfindən Çin Xalq Respublikasının Şencen şəhərində BMT tərəfindən rəsmi tanınan 4-cü Beynəlxalq Xeyriyyəçilik Forumu keçirilib. Tədbirdə Avropa, Amerika və Asiya regionunda fəaliyyət göstərən xeyriyyəçi təşkilatların rəhbərləri və nümayəndələri iştirak ediblər.

Açılış mərasimində çıxış edən Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Li Syaolin tədbirdə ilk dəfə iştirak edən təşkilatlara minnətdarlığını bildirib.

Forumda Heydər Əliyev Fondunun əsas missiyası, ölkədə və xaricdə həyata keçirdiyi layihələr haqqında məlumat verilib. Eyni zamanda, tədbirdə ilk dəfə iştirak edən Heydər Əliyev Fonduna Beynəlxalq Xeyriyyəçilik Forumu tərəfindən "Strateji əməkdaş" statusu təqdim olunub.

Heydər Əliyev Fondu ilə "Sülh və İnkişaf üçün Çin Dostluq Fondu"nun prezidenti, "Çin Xalq Xarici Ölkələrlə Dostluq Assosiasiyası"nın baş katibi Li Xikui ilə görüşdə təşkilatlar arasında əməkdaşlıq perspektivləri və 5-ci Xeyriyyəçilik Forumunun 2020-ci ilin sentyabr ayında Bakıda keçirilməsi məsələsi müzakirə olunub.

Heydər Əliyev Fonduna Beynəlxalq Xeyriyyəçilik Forumunun "Strateji əməkdaş" statusu verilməsini yüksək dəyərləndirən "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə "Bakı-Xəbər"ə bildirdi ki, Mehriban Əliyevanın rəhbərliyi ilə fəaliyyət göstərən, nəinki Azərbaycanda, eləcə də Azərbaycandan çox-çox uzaqlarda xeyriyyəçilik fəaliyyəti göstərən Heydər Əliyev Fondunun belə nüfuzlu statusa layiq görülməsi təqdirəlayiq hadisədir.

V.Rəhimzadə hesab edir ki, Heydər Əliyev Fondu Azərbaycanın dünyada təbliği sahəsində saysız uğurlu layihə həyata keçirib. Azərbaycan xalqının dünya xalqları arasında öz yüksək mədəniyyəti, dəyərləri ilə seçildiyini deyən V.Rəhimzadənin sözlərinə görə, bu dəyərlərin müxtəlif formalarda beynəlxalq ictimaiyyətə təqdim edilməsində Heydər Əliyev Fondunun xüsusi rolu var. Heydər Əliyev Fondunun xeyriyyəçilik istiqamətində olduqca ciddi işlər gördüyünü qeyd edən V.Rəhimzadə bildirdi ki, M.Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətinin əsas istiqamətlərindən biri də mədəniyyətimizin, dövlətçilik ənənələrimizin, tariximizin dünyada təbliğidir. Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması yönündə fondun gördüyü çoxsaylı işlər, keçirdiyi tədbirləri xüsusi vurğulayan V.Rəhimzadə hesab edir ki, Heydər Əliyev Fondu Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə nail olmaq baxımından önəmli missiyanı yerinə yetirir. Azərbaycanın unikal mədəniyyətinin dünyada təbliği missiyasını da Heydər Əliyev Fondunun uğurla həyata keçirdiyini deyən V.Rəhimzadə bildirdi ki, Fondun təşkilatçılığı ilə mötəbər beynəlxalq qurumlarda, dünyanın möhtəşəm şəhərlərində ölkəmizlə bağlı sərgilər, mədəniyyət gecələri və digər tədbirlər keçirilir. Bu tədbirlərin Azərbaycanın dünyada daha yaxından tanıdılması istiqamətindəki xüsusi əhəmiyyəti ilə yanaşı, beynəlxalq ictimaiyyətin də ölkəmizə olan marağının daha da artmasına xidmət etdiyini deyən V.Rəhimzadənin sözlərinə görə, ümumbəşəri dəyərlərə mühüm töhfələr verən M.Əliyeva bu xoş məramı ilə beynəlxalq ictimaiyyətin də böyük hörmət və rəğbətini qazanmağı bacarıb. O qeyd etdi ki, M.Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun sərhəd tanımayan xeyirxah təşəbbüsləri ona dünyada böyük nüfuz qazandırıb. "Heydər Əliyev Fondunun fəaliyyətini Azərbaycan üzrə götürsək, Fond ölkəmizdə müxtəlif sahələrdə humanitar yönümlü layihələr həyata keçirib. Fond bir sıra layihələrin müəllifi, təşəbbüskarı, təşkilatçısı olub. Sosial ehtiyacı olanların təminatında Fondun xüsusi yeri var. Şəhərin abadlaşdırılmasından tutmuş, digər humanist prinsiplərə dayanıq layihələr var ki, onları Heydər Əliyev Fondu reallaşdırıb. Eyni zamanda, M.Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu beynəlxalq aləmdə də saysız humanitar layihə həyata keçirib, xeyriyyəçilik işləri görülüb. Pakistanda və digər ölkələrdə məktəblərin, xəstəxanaların tikintisində, tarixi şəxsiyyətlərə abidələr ucaldılmasında, muzeylərin, məbədlərin əsaslı şəkildə təmir-bərpa edilməsində, eləcə də digər humanitar layihələrdə Fond yaxından iştirak edib. Heydər Əliyev Fondunun xeyriyyəçilik missiyası sərhəd tanımır. Fond tərəfindən Pakistanda, Cibutidə, Bosniya və Herseqovina, Misir, Hindistan, Haiti və digər ölkələrdə həyata keçirilən xoşməramlı aksiyalar dünyada Azərbaycana olan rəğbəti daha da artırır. Həmçinin, dünyada mədəni irsin qorunması, tarixi-mədəni abidələrin və mədəniyyət obyektlərinin bərpası Fondun fəaliyyətində mühüm istiqamətlərdən birini təşkil edir. Bu sahədə görülən işlər, həyata keçirilən layihələr Azərbaycanın mədəni əlaqələrinin möhkəmlənməsində də müstəsna rola malikdir".



*"Fond həyata keçirdiyi çoxşaxəli xeyriyyəçilik işləri ilə bu statusu haqq edib"*

Fondun Strasburq Kafedral Kilsəsinin XIV əsrə aid olan beş pəncərəsinin, Versal Sarayının parkındakı "Amazonka"nın və "Qulpları favn başları ilə bəzədilmiş vaza"nın, Fransada X-XII əsrlərə aid 7 kilsənin, Bolqarıstanın Veliko Tırnovo şəhərində yerləşən "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun bərpasını, Romanın Kapitolini muzeyinin "Filosoflar zalı"nın təmirini həyata keçirən Heydər Əliyev Fondu Parisin Luvr muzeyində İslam incəsənətinə həsr olunmuş yeni zalların yaradılmasında iştirak etdiyini, həmçinin, İkinci Dünya Müharibəsi illərində dağıdılmış və yandırılmış Berlin qəsrinin bərpası təşəbbüsünə qoşulduğunu və s. xeyriyyəçilik işlərini qeyd edən V.Rəhimzadə hesab edir ki, Heydər Əliyev Fonduna Beynəlxalq Xeyriyyəçilik Forumunun "Strateji əməkdaş" statusu verilməsi tam ədalətli bir qərardır: "Hesab edirəm ki, Heydər Əliyev Fonduna xeyriyyəçilik fəaliyyətinə görə belə bir statusun verilməsi tam ədalətli qərardır. Fond həyata keçirdiyi çoxşaxəli xeyriyyəçilik işləri ilə bu statusu haqq edib".

***İradə SARIYEVA***

**Məlum olduğu kimi, hazırda ölkədə iki adda AXCP fəaliyyət göstərir. Onlardan birinə Razi Nurullayev, digərinə isə Əli Kərimli rəhbərlik edir. Vaxtilə Razi Nurullayev birləşmiş AXCP-də Əli Kərimlinin müavini olub. Sonra partiyada yaranan narazılığa görə tərəfdarları ilə partiyanı tərk edib. Razi Nurullayev iddia edir ki, hazırda legitim AXCP onun rəhbərliyi altında fəaliyyət göstərir.**

# Əli Kərimlisiz və Razi Nurullayevsiz vahid AXCP... - sadə cəbhəçilər arasında böyük ajiotaj var...



***Razi Nurullayev:** ”Ona ”siyasətdən get” deyən yoxdur, AXCP-lərin birləşməsi naminə partiya sədrliyindən istefa versin!”*

***Sahib Kərimov:** ”Partiyadan ayrılıb başına bir neçə nəfəri yığmaq o demək deyil ki, sən elə AXCP-sən”*

***Elşən Həsənov:** ”Qarşı tərəf də buna adekvat reaksiya versə, daha bütöv bir təşkilat yarana bilər”*

Fuad Qəhrəmanlı ətrafında baş verən hadisələrin fonunda, Razi Nurullayev maraqlı təkliflə çıxış edib. Partiya sədri R.Nurullayev təşkil olunan son toplantıda çıxış edərək AXCP-nin üzərinə ciddi məsuliyyət düşdüyünü bildirib. Partiyanın birləşməsi məsələsinə toxunan R.Nurullayev deyib ki, ölkədə iki AXCP-nin olması yolverilməzdir: " Mənim - R.Nurullayevin və Əli Kərimlinin rəhbərlik etdikləri AXCP-lər vahid bir partiyada birləşməlidir. Bu, günümüzün, xalqımızın və demək olar ki, hər kəsin tələbidir. Birlik çağırışları edən zaman səmimi olmuşam və bu gün də bu istəyimi ürəkdən, təzyiq altında qalmadan, özüm və partiyadaşlarımın iradəsi ilə səsləndirirəm. Biz inanırıq ki, hazırkı iqtidara ciddi siyasi müqavimət təşkil etmək üçün müxalifət arasında olan çəkişmələrə, dedi-qodulara, qarşılıqlı ittihamlara son qoyulmalıdır. Əgər qarşı tərəf bizə olan hücumları və təhqirləri kənara qoysa, o zaman birləşmək üçün daha ciddi səylər göstərə bilərik".

R.Nurullayevin fikrincə, AXCP-lərin birləşməsi üçün məqbul bilinən yol partiyanın vahid qurultayının keçirilməsi, AXCP-nin hər iki qanadının rəhbərlərinin, onun və Ə.Kərimlinin sədrliyə iddialı olmamasıdır: "Biz cəmiyyətə, xalqa doğru-dürüst mesajlar verək ki, xalq bizə inansın. Bundan artıq daha nə edə bilərəm ki? İndi söz Ə.Kərimlidədir. Mütləq şəkildə AXCP-ləri birləşdirməliyik və intriqalara son qoymaq üçün yeni sədr seçilməlidir. Digər tərəfdən, bir nəfər nə qədər sədr kürsüsündə qala bilər? Məgər biz hökuməti buna görə tənqid etmirikmi? Bəs o zaman iqtidardan fərqimiz nədir? Qoy Ə.Kərimli papağını qarşısına qoyub ciddi düşünsün! Ona "siyasətdən get" deyən yoxdur, AXCP-lərin birləşməsi naminə partiya sədrliyindən istefa versin!"

Göründüyü kimi, R.Nurullayev partiyanın bütövləşməsi üçün gözəl bir model təklif edir. Hər iki sədr ambisiyasını kənara qoymaqla məsələ öz həllini tapa bilər. R.Nurullayevin rəhbərlik etdiyi qurumun mövqeyi ortada olduğu üçün, qarşı tərəfin bu təklifə reaksiyasını öyrənmək istədik. Təəssüflər olsun ki, Ə.Kərimlinin rəhbəri olduğu qurumdakı funksionerlər mediaya olan münasibətlərindəki bolşevik təfəkkürünü hələ də dəyişməyiblər. Onlar, birmənalı olaraq, deyirlər ki, Ə.Kərimlinin başçılıq etdiyi qurumun fəaliyyətinə birmənalı dəstək verməyən hər hansı KİV-lə əməkdaşlıq etmirlər. Bu səbəbdən də sualımız cavabsız qaldı. Qərara aldıq ki, kənar partiyaların məsələyə mövqeyini öyrənək.

Uzun müddət AXCP-də funksioner kimi fəaliyyət göstərmiş, sonradan partiyadan istefa verən Sahib Kərimli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, qaldırılan məsələ ideya olaraq yaxşıdır: "Ancaq mən buna fərqli baxıram. Şəxsən mənim özüm də istəyirəm ki, "Rəsulzadə-Elçibəy" yolunun davamçıları olan qurumlar birləşsinlər. Onda ortaya çox güclü bir təşkilat çıxa bilər. Bu yolda çalışmalarım da var. Ancaq hesab etmirəm ki, bunu yalnız ciddi legitimliyi olmayan R.Nurullayevin rəhbəri olduğu qurum edə bilər. Partiyadan ayrılıb başına bir neçə nəfəri yığmaq o demək deyil ki, sən elə AXCP-sən. Bəli, qarşılıqlı güzəştlər olmalıdır. Bunsuz mümkün deyil. AXCP-dən yalnız R.Nurullayev ayrılmayıb axı. Görün nə qədər nüfuzlu şəxslər oradan gediblər. Oranın şinelindən çıxan neçə partiya var. Bu istiqamətdə daha ciddi iş aparılmalıdır. Milli Azadlıq Hərəkatında çox ciddi çəkiyə malik olan şəxslər burada nələrsə edə bilərlər. Onları bir araya gətirməliyik".

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov isə qəzetimizə açıqlamasında R.Nurullayevin təklifini dəstəklədiyini bildirdi: "Həqiqətən də hiss edilir ki, Razi bəy öz əqidədaşlarını bütövləşdirmək istəyir. Bu yolda bütün ambisiyalarını da kənara qoyaraq hərəkət edir. Qarşı tərəf də buna adekvat reaksiya versə, daha bütöv bir təşkilat yarana bilər. Siyasətdə güzəştlər olmalıdır. Bir şəxs uzun illər sədrlik postundan getmirsə, elə bunun özü də avtoritarizmə dəlalət edir".

***Məhəmmədəli QƏRİBLİ***

**Son vaxtlar sosial şəbəkələrdə maraqlı ab-hava hökm sürür. Hamının radikal müxalif gəncliyin nümayəndəsi kimi tanıdıqları gənclər ayrı-ayrılıqda AXCP-ni sərt tənqid edirlər. Söhbət bir vaxtlar elə AXCP və onun lideri Əli Kərimlinin gəncliyə mübarizlik örnəyi olaraq göstərdiyi İlkin Rüstəmzadə, Qiyas İbrahimli, Emin Milli kimi adamlardan gedir.**

# Radikal gənclərin siyasi fəalları arasında Əli Kərimliyə antipatiya güclənir, konkret faktlar...



***Məhərrəm Zülfüqarlı:** ”Dediyiniz gəncliyin nümayəndələri həbsxanaya düşəndə onların hadisələrə kənardan baxmaq üçün, baş verənləri təhlil etməyə kifayət qədər vaxtı olur”*

Bildiyimiz kimi, hər üç gənc həbs həyatı yaşayıb. Həbsdə olduqları dönəmdə AXCP onları sırf siyasi motivlərə görə həbsə salınan şəxslər kimi müdafiə edib. Bir müddət əvvəl həbsdən çıxan Qiyas və İlkin hazırda sərt şəkildə AXCP-ni tənqid edirlər. Ən əsası da onların 28 sentyabr mitinqini təyin etməklə doğru addım atmadıqlarını yazırlar. Bir neçə gündür AXCP-nin troll maşını fərqli mövqe sərgiləyən və əvvəl qürur duyduqları bu gəncləri linç edir. Müxalif gəncliyin AXCP və Əli Kərimliyə qarşı bəslədikləri antipatiyanın səbəbini nə ilə izah etmək olar?

İctimai Problemlərin Tədqiqi Assosiasıyasının rəhbəri, professor Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bunun bir neçə səbəbi var: "Birinci səbəbi hakimiyyətin güclü olması ilə bağlıdır. İkincisi isə siyasi partiyaların ideologiya üzrə formalaşmaması ilə əlaqədardır. AXC vaxtilə hərəkat olub. Orada bütün siyasi oriyentasiyaların təmsilçiləri təmsil olunurdu. Partiyalaşma gedəndə də həmin adamların çoxu qaldı. Sonra yaranan partiyalara da nəzər salanda məlum olur ki, üzvlərin çoxu ora ya yerliçilik, ya da qohumluq prinsiplərinə görə toplanıb. Son vaxtlar bu hadisələr həm də ona görə çox baş verir ki, müxalifət cəbhəsində bir-birinə çoxlu qısqançlıq var. Bunların ənənəsi belə qoyulub. Hələ 90-cı illərdən həmin partiyalar öz nəzarətlərində olan qəzetlərdə ana müxalifətin kim olması istiqamətində mübarizə aparırdılar. Həmin ənənədən bunlar imtina edə bilmirlər. Rəhmətlik Şəhriyarın belə bir fikri var. Deyir ki, yer bərk olanda öküz-öküzdən inciyir. Bunlar bir-birini söyməklə önə çıxmaq istəyirlər. Dediyiniz gəncliyin nümayəndələri həbsxanaya düşəndə onların hadisələrə kənardan baxmaq üçün, baş verənləri təhlil etməyə kifayət qədər vaxtı olur. Əvvəlki illərdə həbsə düşən gənclərin də hamısı radikallardan imtina edib. Çünki əksəriyyəti görüb ki, onları bir vaxt qızışdıranlar heç onlara bir çörək alıb göndərməyiblər də. Bir də dediyiniz gənclərin çoxu müxalif olsalar da, hadisələrə ideoloji baxışları fərqlidir. Ancaq görürsünüz ki, ənənəvi müxalifət, xüsusilə də AXCP onları qəbul etmir. Yeganə çıxış yolunu onlara satqın damğası vurmaqda görürlər. Bu, doğru yanaşma deyil. "Kim bizim kimi düşünmürsə, deməli, satqındır" yanaşması bolşeviklərdə olub".

***Məhəmmədəli QƏRİBLİ***

# "Azərpoçt" bank hesablarını talayan kibercinayətkar qrupun fəaliyyətinə dair anons verdi...

**"Azərpoçt" MMC-nin loqosu ilə vətəndaşların mobil telefonlarına saxta mesajlar göndərilir. Məlum olduğu kimi, bununla əlaqədar "Azərpoçt" vətəndaşlara xəbərdarlıq edib. Qurumdan bildirilib ki, son zamanlar "Azərpoçt"un loqosu ilə qurumun adından vətəndaşların mobil telefonlarına saxta mesajlar daxil olur.**




Mesajların mövzusu təxminən belədir: "Təbriklər, "Azərpoçt" istifadəçiləri. Daxil olduğunuz üçün təşəkkür edirik! Yeni "Samsung Galaxy 10" cihazını qazanmaq üçün sizə daha bir şans veririk. Tək edəcəyiniz düzgün hədiyyə qutusunu seçməkdir".

Mesajda yazılanları icra edən vətəndaşlardan bank kartının nömrəsi tələb olunur. Müəyyən məbləğ ödədikdən sonra hədiyyəsini ala biləcəyi qeyd edilir. Beləliklə, mesajda yazılanlara aldanan vətəndaşların bank kartlarında olan hesablarındakı vəsait mənimsənilir.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Elektron Təhlükəsizlik Xidməti bu cür hallarla rastlaşan vətəndaşların nəzərinə çatdırır ki, internetdən istifadə zamanı veb-brauzeriniz sizi başqa bir sayta yönləndirirsə, bu

### *Şaiq Muradov: "Belə hallar kibercinayətkarlığın bir növü olduğu üçün, vətəndaşlar ehtiyatlı olmalıdırlar"*

o deməkdir ki, sizin mobil qurğu və ya kompyuter zərərli proqramla (adware) yoluxub. Bu halda telefonunuza həmin saytdan arzuolunmaz "pop-up" reklamlar gəlir, eyni zamanda, zərərli proqramlar yüklənir. Məqsəd böyük məbləğli pullar və ya uduşlar vəd edərək istifadəçiləri aldatmaqdır.

"Azərpoçt" MMC və Elektron Təhlükəsizlik Xidməti məsələ ilə bağlı araşdırmaları davam etdirir.

Bu cür halların baş verməsi vətəndaşlara yönəlik kibercinayət təhlükəsindən xəbər verir. Hansı ki, vətəndaşların bir çoxu bu kimi mesajların necə təhlükəli olmasının fərqində deyil.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən İKT sahəsi üzrə ekspert Şaiq Muradov hesab edir ki, belə hallar kibercinayətkarlığın bir növü olduğu üçün vətəndaşlar ehtiyatlı olmalıdırlar: "Bu minvalla vətəndaşların fərdi hesablarına müdaxilə olunur. Nəticədə onların pulları mənimsənilir. Belə hallar bütün dünyada geniş yayılıb. Bu cür elektron hücumlara pişenq deyirlər. Azərbaycanda əvvəllər belə hallar yox idi və kiminsə fərdi bank hesabına müdaxilə olmurdu. Sadəcə olaraq, indi internet bankın inkişafı ilə əlaqədar olaraq belə təhlükələr ortaya çıxıb. Bu yaxınlarda belə mesajlardan birini incələdim. Kodlarında türk sözlərinə rast gəldim. Ona görə də vətəndaşlar belə hallarda son dərəcə diqqətli olmalıdırlar. Qəti şəkildə öz fərdi məlumatlarını heç bir yerə yazmasınlar. Bu kimi mesajlara cavab verməsinlər. Nəzərə almaq lazımdır ki, bankın vətəndaşın kartının koduna, digər şifrələrinə onsuz da heç bir ehtiyacı yoxdur. Vətəndaş hansısa şübhəli vəziyyətlə üzləşirsə, o zaman dərhal banka gedib şifrələrini dəyişsin. Bizdə bəzi insanlar pulla bağlı reklamlara son dərəcə həssas yanaşırlar. Görürsən sosial şəbəkələrdə elə şirnikləndirici reklamlar verilir ki, bəzən vətəndaşlar buna aldanırlar. Məsələn, reklamda deyilir ki, məlumatlarınızı daxil edin, əvəzində bahalı telefon udacaqsınız. Bəziləri belə reklamlara qoşulur və nəticədə problemlə üzləşirlər. Ona görə də ciddi araşdırma aparmadan belə mesajlara cavab verməsinlər. Bu baxımdan məsələ yenə gəlib fərdi təhlükəsizlik probleminə çıxır. O üzdən, insanlar öz fərdi təhlükəsizliklərinə riayət etsələr, əslində, heç bir problem olmayacaq".

*"Qəti şəkildə öz fərdi məlumatlarını heç bir yerə yazmasınlar"*

***Vidadi ORDAHALLI***

# Baş həkim cinayət törətmiş ruhi xəstə ilə bağlı çox mətləblərə aydınlıq gətirdi

**Xəbər verildiyi kimi, bir neçə gün öncə Bakıda dəhşətli qətl hadisəsi baş verib. Hadisə paytaxtın Sabunçu rayonu ərazisində baş verib. Belə ki, rayonun Bilgəh qəsəbəsi, 28 May küçəsinin ortasında Abbasov Zakir Akif oğlunun bıçaqla qətlə yetirilmiş meyiti aşkarlanıb. Hadisə yerindən 10 metr aralıda yerləşən elektrik transformatorunun kabinəsindən isə daha bir meyit aşkar edilib.**



Hüquq-mühafizə orqanları əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində məlum olub ki, kabinədən tapılan meyit Bilgəh qəsəbə sakini, psixi xəstə, 1957-ci il təvəllüdlü Rzayev Sərvər Əlibaba oğluna məxsusdur.

Qeyd edək ki, S.Rzayev əvvəlcə damarlarını doğrayaraq küçəyə çıxıb, qohumu və qonşusu olan, 1977-ci il təvəllüdlü Abbasov Zakir Akif oğlunu bıçaqla qətlə yetirib. Qohumunun öldüyünə əmin olan S.Rzayev yaxınlıqdakı transformator kabinəsinə daxil olaraq yüksək gərginlikli elektrik xəttinə toxunaraq intihar edib.

Məlumat üçün bildirək ki, psixi xəstə S.Rzayev müalicəsini xəstəxana şəraitində deyil, evdə davam etdirib.

Psixi xəstələr xəstəxanadan evə buraxıldıqdan sonra onlara hər hansı formada nəzarət edilirmi?

1 saylı Ruhi Əsəb Dispanserinin baş həkimi Ağahəsən Rəsulov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, S.Rzayev adlı xəstə dispanserdə müalicə alıb. Ancaq həmin xəstə bir ay dispanserdə qaldıqdan sonra müalicəsini ev şəraitində davam etdirəcəyini deyib: "Artıq uzun müddət idi ki, həmin şəxs xəstəxanadan ayrılıb. Dispanserə müraciət edən xəstələr arasında elələri var ki, onlar müalicəyə

### *1 saylı Ruhi Əsəb Dispanserinin baş həkimi Ağahəsən Rəsulov: "Psixi xəstələr istədikləri vaxt küçəyə çıxa, ərizə yazaraq xəstəxananı tərk edə bilərlər"*

başladığı andan 2 gün keçəndən sonra müalicədən imtina edir.

Ümumiyyətlə, psixi xəstələr öz istəkləri ilə xəstəxananı tərk edə bilərlər. Adətən xəstələr öz ərizələri ilə xəstəxanaya daxil olurlar. Ona görə də onları məcburi saxlayıb müalicə etmirik. Həmin xəstələr istədikləri vaxt küçəyə çıxa, ərizə yazaraq xəstəxananı tərk edə bilərlər. Bura həbsxana deyil ki, insanları məcburi tutub saxlayaq. Həm də sosial təhlükəsi olmayan xəstə küçəyə çıxdıqda, etdiyi hərəkətlərə özü cavabdeh olur. Xəstə yazılı şəkildə qeyd edir ki, xəstəxanadan kənarda nə baş verərsə, o bütün məsuliyyəti öz üzərinə götürür və müalicəsini ev şəraitində davam etdirəcək. Yazılı ərizə bizə təqdim olunduqdan sonra xəstənin dispanserdən çıxışına icazə veririk. Xəstəxana işçiləri həmin şəxsi güclə saxlaya bilməz".

Həmsöhbətimiz onu da əlavə etdi ki, xəstə özü və ətraf aləm üçün təhlükəli sayılarsa, məhkəmənin qərarı ilə həmin şəxs 6 aydan 1 ilə qədər dispanserdə qalıb müalicə olunmalıdır: "Elə xəstələr var ki, onlar arasında cinayət törədənlər də olur. Məhkəmə ekspertizasının qərarı ilə cinayət törətmiş ruhi xəstə ruhi əsəb dispanserində müalicə olunmalıdır.

Xəstəxananın baş həkimi onu da vurğuladı ki, psixoloji durumu ağır olan xəstələr cəmiyyətin ən zəif təbəqəsi hesab olunur: "Bunların hər birinin çox acınacaqlı taleyi var. Onlar öz qayğılarına qala bilməyən insanlardır ki, dövlətimiz onlara sahib çıxıb. Buradakı sakinlərimiz pulsuz yemək, dərman və yataq şəraiti ilə tam təmin olunurlar. Texniki avadanlığımız müasir tibbi avadanlıqlardır ki, yalnız bizim dispanserimiz təmin olunub".

Həmsöhbətimizin sözlərinə görə, ümumi xəstələrin yalnız 1 faizi təhlükəli xəstələr hesab olunurlar: "Remissiya halında yaşaya bilən xəstələr dispanserdən ayrılsalar da, həkim müayinəsinə mütləq gəlməlidirlər. Hətta o xəstələrə ailələri sahib çıxmır. Bəzən insanlar özlərindən asılı olmayan səbəblərdən də xəstələrinə sahib çıxa bilmirlər. Bir sözlə, eloba qınağından çəkinirlər. Yəni dispanserdən çıxmış xəstələr kiminsə ailəsinə, uşağına sataşıb deyə, ailəsi də məhz bu səbəbdən onu aparmır, qorxurlar ki, yenidən nəsə baş verər. Amma biz belə xəstələri evə yazanda da məsuliyyət daşıyırıq. Çünki bəzən həmin xəstələr kriminal qrupların əlində ələtə çevrilirlər, onlara narkotik və s. daşıdırlar".

*"Xəstə özü və ətraf aləm üçün təhlükəli sayılarsa, məhkəmənin qərarı ilə həmin şəxs 6 aydan 1 ilə qədər dispanserdə qalıb müalicə olunmalıdır"*

Baş həkim qəzetimiz vasitəsilə digər media orqanlarına səsləndi ki, KİV nümayəndələri psixi xəstələrlə bağlı məlumat yazarkən düzgün informasiyanı ictimaiyyətə çatdırsınlar: "Qəyyumların istəyi ilə təbii ki, xəstələr evə buraxılır. Bu zaman baş verəcək hadisələrə qəyyum özü cavabdehlik daşıyır. Yaxınları vaxt məhdudiyyəti olmadan, istədikləri qədər xəstəni evə aparıb saxlaya bilərlər. Jurnalistlərə də səslənirəm ki, "psixi xəstə xəstəxanadan qaçdı" kimi başlıqlı xəbər paylaşmasınlar. Nəzərə almaq lazımdır ki, məcburi saxlanan xəstə qaçdıqda polis onu axtarıb tapır".

***Günel CƏLİLOVA***

# Paşinyanla Ümumerməni katolikosluğunun yeni müharibəsi rəsmən başlayır

**Ermənistandakı vəziyyətin bütün sahələr üzrə ürəkaçan olmadığını elə onların özləri etiraf edirlər. Nikol Paşinyan ABŞ-da kilsəyə qarşı açıq müharibə elan etdiyini bəyan edib. Onun Los- Ancelesda keçirdiyi mətbuat konfransında Baş nazirin kilsə ilə münasibətlərindəki gərginliyin həllini tapmadığı məlum olub.**

O bildirib ki, Ermənistan xalqı hökumətin Ümumerməni kilsəsinin daxili işlərinə qarışmağı tələb edərsə, hakimiyyət təcili olaraq bunu müzakirəyə çıxarıb uyğun addımlar atacaq. Onun sözlərinə görə, Ermənistan hökumətinin liberal siyasətini bir sıra siyasi qüvvələr bəzən səhv olaraq zəiflik kimi dəyərləndirirlər: "Bu hal artıq bəzi ruhani dairələrdə də müşahidə edilməkdədir. Bizim kilsənin daxili işlərinə müdaxilə etməyəcəyimiz barədə dediklərimizi "kilsədəkilər" zəiflik kimi qiymətləndirirlər. Onlar çox sərt ekszərbə alıb birbaşa və dolayı olaraq diz çökəcəklər. Təkrar xəbərdarlıq edirəm, bizim təbəssümümüzü və hörmətimizi kimsə zəiflik hesab etməsin".

Ötən il Ermənistan parlamenti Ümumerməni katolikosunun dövlət mühafizəsi üçün maliyyə vəsaitinin artırılması haqqında qanun layihəsini qəbul etmədi. Bu, tərəflər arasında ziddiyyətin ilk görüntüsü idi. Onda N.Paşinyanın "Çıxış" fraksiyası bildirdi ki, xalqın arasında katolikosun sərbəst gəzə bilməsi öz problemidir: "Bu barədə özü düşünməlidir".

Ötən il noyabrın 1-də Nikol Paşinyan parlamentdəki çıxışı zamanı ABŞ-ın Tehrana münasibətinə və başqa geopolitik problemlərə görə Ermənistan-İran sərhədinin istənilən vaxt de-fakto bağlana biləcəyini söyləmişdi. Onda Tehrandakı erməni kilsəsinin başçısı, arxiyepiskop Sepux Sarkisyan cavab olaraq bildirmişdi ki, İranla sərhədin bağlanmasından yalnız Ermənistan ziyan çəkəcək və N.Paşinyanın sərhədin bağlanacağı ilə bağlı ehtimalı reallığı əks etdirmir: "İran güclü dövlətdir. O, bütün təzyiqlərə müqavimət göstərəcək. Tehranla münasibətlərin korlanmasından yalnız Ermənistan əziyyət çəkəcək".

Bundan başqa, Ermənistan kilsəsi ilə diaspor arasında da ziddiyyət yaranıb. Sibir, Volqaboyu və Uraldakı erməni icması Rusiyadakı Erməni Apostol Kilsəsini tamahkarlıq, avtoritarlıq və diaspor nümayəndələri arasında qarşıdurma yaratmaqda ittiham edir.

Ermənistan hakimiyyəti ilə kilsə arasında yaranan bu gərginlik nə vəd edir?

İlahiyyatçı Tural İrfan qəzetimizə açıqlamasında bildirdi ki, Paşinyanın Ümumerməni kilsəsinin işinə qarışması heç də təsadüfi deyil: "Biz bilirik ki, erməni kilsəsi tarix boyu erməni məkrinə xidmət edib və o, millətin siyasi maraqlarına alət olub. Lakin artıq dünya dəyişir və erməni kilsəsi də özünün oyuncağa çevrildiyini anlayır. N.Paşinyan görünür ki, erməni kilsəsinin əli ilə hansısa məkrli oyun həyata keçirmək istəyir, kilsə də buna razılıq vermir. Ümumi dövlət maraqları olduğu üçün, problemin kökü və səbəbi haqda açıqlama verilməsə də, gedişatdan bu aydın olur. Ermənilər tarix boyu öz işğalçılıqlarına, qəddarlıqlarına və vandallıqlarına kilsə vasitəsilə haqq qazandırıblar. Din insanların həssas yeri olduğu üçün, etdikləri bütün cinayətlərə dini don geydiriblər. Bunu da kilsəyə məhz erməni ideoloqları, dövlət adamları diqtə və təlqin ediblər. İndi isə erməni kilsəsi dünyada təcrid olunduğunu görür və bu alətçiliyə etiraz edir. Çünki ermənilər xaçpərəst olsalar da, əslində, qeyri-ənənəvi Qriqoryan dininə məxsusdurlar. Onlar nə katolik, nə də pravoslav sayılmamalıdır. Bir sözlə, N.Paşinyan Ümumerməni kilsəsini öz siyasi maraqlarına tam alət edə bilmədiyi üçün kilsənin etirazı ilə qarşılaşıb. Burada daha gizli məqamlar da ola bilər. Paşinyanın hakimiyyətə gəlməsinin əleyhinə olan maraqlı dövlətlər və güclər kilsə vasitəsilə ona təzyiq göstərmək istəyə bilərlər. Yaxud da Paşinyan bir dövlətin, kilsə isə başqa dövlətin təsirində ola bilər ki, maraqların toqquşması nəticəsində bu ziddiyyətlər dərinləşər".



İlahiyyatçının sözlərinə görə, ümumiyyətlə, Ümumerməni kilsəsi ilə erməni hakimiyyəti arasındakı münaqişənin dərinləşməsində kənar maraqların olması istisna edilmir: "Paşinyan üzdə özünü elə göstərir ki, guya o, müstəqil siyasət aparır və heç bir dövlətin əlaltısı deyil. Ermənistan tarix boyu Rusiyanın əlaltısı olub. Paşinyan isə zahirdə özünü müstəqil kimi təqdim etmək istəyir. Rusiya onu belə təlimləndirməklə Qarabağ məsələsində guya onun rolu olmadığı görüntüsünü yaratmaq istəyir. Son zamanlar Türkiyənin güclənməsi və Qarabağ probleminin həlli üçün təsir göstərməsi, Rusiyanın qınanması vadar etdi ki, Ermənistanın başına Paşinyan kimi adam gətirsinlər, o da görünüşdə özünü Qərbpərəst təqdim etsin, Rusiya isə özünü bu bəhanə ilə kənara çəkə bilsin. Lakin görünən odur ki, kilsəni ABŞ dəstəkləyir. Burada da maraqlar toqquşur. Sonda erməni kilsəsinin Paşinyana təslim olacağı görünür. Çünki Ümumerməni kilsəsi tarixən siyasi alət olduğu üçün, dünyada ali xristian ruhaniləri yanında böyük nüfuza sahib deyil. Ələlxüsus da dünya xristianlarından fərqli bir məzhəbə - Qriqoryan cərəyanına məxsusdurlar. Qarabağ məsələsində Qareginlə görüşlərdə dəfələrlə şahidi olmuşuq ki, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxulislam A.Paşazadə həqiqətləri ona çatdırıb və mövqe tələb edib. Qaregin bunun qarşısında həqiqətləri etiraf etsə də, sonradan hakimiyyətlərinin təsiri ilə susqunluğa yol verib.

Ermənilər təzyiq göstərə bilsələr, kilsəni müdafiə edə bilsələr, Ermənistanda böyük iğtişaşlar, dini zümrə ilə hökumət arasında qarşıdurma ola bilər".

***Məhəmmədəli QƏRİBLİ***

# Zelenski ilə telefon danışığı ABŞ Prezidentinin taxtını silkələdi... Trampın vəzifədən kənarlaşdırılması prosesi başladı



**ABŞ Nümayəndələr Palatasında çoxluqda olan demokratların lideri Nensi Pelosi Prezident Donald Trampa qarşı impiçment prosesinin başladılması üçün ilk rəsmi addımın atıldığını bildirib.**

Trampın Ukrayna Prezidenti Vladimir Zelenski ilə telefonla danışdığını və Co Baydenlə bağlı tədqiqata başlanmasını istədiyini etiraf etdiyini bildirən Pelosi Trampın addımlarının milli təhlükəsizliyi baltaladığını deyib.

Pelosi Trampın vəzifədən kənarlaşdırılması prosesinin başladılması üçün ilk rəsmi addımı atdıqlarını deyib: "Tramp elədiklərinə görə hesab verməlidir. Heç kim hüquqdan üstün deyil".

Tramp ABŞ tarixində haqqında impiçment prosesi başladılan dördüncü prezidentdir.

Bu arada, Tramp bu addıma Twitter hesabından cavab verib: BMT-də önəmli bir gün və bu qədər uğurlu... Demokratlar bunu "ifritə ovu" oyunu ilə məhv edib mənasızlaşdırdı. Bu, ölkəmiz üçün çox pis oldu".

Bundan əvvəl Amerika mətbuatı Trampın telefon danışığı zamanı Ukrayna prezidentinə demokrat senator, keçmiş vitse-prezident Co Baydenin oğlu Hanter Baydenin "korrupsiya əlaqələrini" araşdırmaq üçün təzyiq göstərdiyini yazmışdı.

# Azərbaycan Ermənistan üzərində əzici hərbi üstünlüyünü daha da artıracaq

**Rusiya və Türkiyə arasında hərbi sahədə intensiv inkişaf edən hərbi əməkdaşlıqdan Ermənistanın böyük narahatlıq duyması heç kimə sirr deyil. Amma İrəvanın bu narahatlığına rəğmən, Moskva və Ankara ən son texnloji hərbi avadanlıqların mübadiləsi sahəsində əməkdaşlığı dərinləşdirməyi planlaşdırır.**

Bunun isə Azərbaycan üçün də müəyyən təsirlərinin olması, ölkəmizin bu əməkdaşlıq fonunda yeni hərbi texnologiyalar alması proqnozlaşdırılır. Məsələn, artıq erməni mediası son dövrlərdə xüsusi həyəcan təbili çalır ki, Azərbaycan Türkiyə vasitəsilə Rusiyanın beşinci nəsil qırıcı təyyarələri olan Su-57-ləri əldə edə bilər.

Yeri gəlmişkən qeyd edək ki, Nur-Sultanda Avrasiya ölkələrinin parlament spikerlərinin dördüncü iclasında iştirak edən Türkiyə parlamentinin sədri Mustafa Şəntop bildirib ki, Ankara ona sərf edən şərtlər əsasında Rusiyadan beşinci nəsil Su-57 tipli qırıcıları ala bilər: "Niyə də yox? Təbii ki, hər bir ölkənin müdafiə sənayesində öz ehtiyacları var. Xatırlayırsınızsa, S-400-lərlə də bağlı belə bir vəziyyət yaranmışdı. Türkiyə öz müdafiəsi üçün istənilən vasitəni sərfəli şərtlərlə ala bilər. Bu vasitələr həm Rusiyadan, həm də üçüncü ölkədən alına bilər". Qeyd edək ki, avqustun 27-də Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan rusiyalı həmkarı Vladimir Putinlə birgə "MAKS - 2019" aviasərgisinə qatılıb. Məhz burada Türkiyə prezidenti Rusiya istehsalı olan Su-35 və Su-57 qırıcıları ilə maraqlanıb və prezidentlər bu mövzuya danışıqlar zamanı da toxunublar. Ərdoğan bəyan edib ki, Türkiyə və Rusiya Su-57-nin tədarükü ilə bağlı danışıqlar aparır. Elə bundan sonra Ermənistanın "1-in.am" portalı belə bir iddia ilə çıxış etdi ki, Türkiyə həmin qırıcıların bir hissməsini Azərbaycana ötürəcək: "Türkiyə sanksiyaların təhdidinə boyun əyməyərək hazırda Ərdoğan səviyyəsində Rusiya qırıcılarına maraq göstərməkdədir. Bu vəziyyət, təbii olaraq, Ermənistanı maraqlandırmalıdır. Həm də sadəcə Rusiya-Türkiyə hərbi-texniki əməkdaşlığı baxımından deyil, məsələyə daha geniş yanaşılmalıdır. Məsələ burasındadır ki, rus qırıcıları Ankaraya çatdıqdan sonra Bakıda peyda ola bilər. Bundan əlavə, hələ 2 il əvvəl Ermənistanın Rusiyadan Su-30 qırıcı təyyarələrini alması ilə bağlı müzakirələr gedərkən bəzi rus hərbi ekspert dairələri qeyd edirdi ki, Moskva bu qırıcıları Ermənistana verməklə daha yeni təyyarələr almaq üçün Azərbaycanı təşviq etmək niyyətindədir. Türkiyəyə veriləń təyyarələr Azərbaycan tərəfə verilsə, o zaman bunun Ermənistan üçün ağır nəticələri ola bilər. Ankara əldə etdiyi bəzi rus qırıcılarını təkrarən Bakıya sata bilər. Ən azı, bunun nəzəri bir təhlükəsi mövcuddur. İstənilən halda açıq şəkildə görünür ki, Rusiya Türkiyə hərbi-texniki sövdələşməsi halında İrəvan bu anlaşmanın Rusiya və Azərbaycan arasında vasitəçilik ticarətinə çevrilməyəcəyinə dair Moskvadan zəmanət almalıdır. Bu hərbi-texniki əməkdaşlıq Ermənistanın təhlükəsizliyinə təhdid yaradır, eyni zamanda Ermənistanın hava üstünlüyü strategiyasının perspektivini təhlükə altına alır".



Amma "Əl-Monitor" dərgisi yazır ki, Ermənistanı narahat edən məsələ təkcə qırıcı təyyarələrlə bağlı deyil. Türkiyə Rusiya ilə əməkdaşlıq nəticəsində yerli istehsalı olan pilotsuz uçan aparatlarını Azərbaycana satmağa hazırlaşır: "Türkiyə ilk kruiz raketini döyüş başlığı ilə sınaqdan keçirib. "SOM-B2"-nin sınağı Ankaranın müdafiə sənayesini inkişaf etdirmək və xarici silah istehsalçılarından asılılığını azaltmaq səylərinin bir hissəsidir. Bu səylərin digər bir hissəsi Türkiyənin aparıcı dron istehsalçısı "Baykar Makina"nın "Akıncı" adlı PUA-sıdır. "Baykar Makina" Türkiyə və İraqda 3 ildir ki, antiterror əməliyyatlarında, Egey dənizində və Suriyanın şimalında kəşfiyyat və nəzarət üçün aktiv istifadə olunan "TB Egekli" dronları istehsal edir. "TB2" ilə Türkiyə ABŞ, Rusiya, Çin, İsrail, Pakistan və İrandan sonra operativ PUA sahəsində 6-cı ölkə olub. "TB2"nin ilk ixracatı Qətərə, ardınca Ukraynaya edilib. Ancaq "Baykar Makina" artıq coğrafiyanı genişləndirib. Avqustun əvvəlində Ukraynanın dövlətə məxsus silah ixrac şirkəti "Ukrspecexport" daha inkişaf etmiş "Akıncı" istehsalına kömək etmək üçün "Baykar Makina" ilə birgə müəssisə qurub. Türkiyə bu fonda nümunə mühərriklərini sentyabrın əvvəlində Ukraynadan alıb və Bayraktar testlərin ilk vizual görüntülərini sentyabrın 7-də "Twitter"də paylaşıb. "Akıncı" PUA-nın qanadları 20 metr, ən yüksək uçuş çəkisi 4500 kiloqram olacaq. 24 saat ərzində havada qalması və 12192 metr əməliyyat tavanına sahib ola biləcəyi gözlənilir. Bu rəqəmlər "TB2"nin statistikasını, demək olar ki, 2 qat artırır. Türkiyə Müdafiə Sənayesi rəhbərliyinin sözlərinə görə, "Akıncı" müvafiq olaraq 450 ilə 900 kiloqrama qədər yüklənə biləcək. Hava nəqliyyat vasitəsi "Aselsan AS" tərəfindən hazırlanmış missiya avadanlığı aktiv elektron skan edilmiş serial radar və platformanın yerüstü stansiyadan asılı olaraq fəaliyyət göstərməsinə imkan verən elektron döyüş və peyk rabitə sistemləri ilə təchiz ediləcək. O, "Roketsan MAM-L" dəqiq idarə olunan bombası, "Cirit" raketləri və 8 kilometrə qədər məsafəni hədəfə ala biləcək ən son "MAM-C" "ağıllı silah"ı daşıya biləcək. Ankara "Baykar Makina"nın səylərinə çox diqqət yetirir. Türkiyədəki iqtisadi böhrana baxmayaraq, bu ay "Baykar Makina"ya "Akıncı" istehsal etmək üçün İstanbulun Esenyurt mahalında geniş bir zavod inşa etmək məqsədilə 120 milyon dollara yaxın dövlət dəstəyi, ixrac və əlavə dəyər vergisi güzəştləri verilib. "Akıncı" dronlarının əvvəlcə Türkiyə hərbçilərinə təhvil veriləcəyi gözlənilir. Bundan əlavə, Qətər, Azərbaycan və Malayziya "Akıncı" satın almaqda maraqlıdır.

Hazırda Türkiyə "Akıncı" ilə bağlı bir mühüm problemi həll etməlidir və məhz bu zaman dövriyyəyə Rusiyanın girməsi gözlənilir. Belə ki, "Akıncı" ciddi bir risq təqdim edən "GPS"dən asılıdır. Bu gün ABŞ tərəfindən idarə olunan GPS-in yeganə qlobal alternativi bir neçə il əvvəl tam qlobal əhatə dairəsinə çatan Rusiyanın GLONASS-ıdır. "Akıncı" GPS ilə əlaqəli qalacaq və ya QLONASS-a keçəcək? Bu sualın cavabı Rusiya istehsalı olan S-400 sistemi və F-35 reaktiv qırıcı böhranından bəllidir. Ankaranın pilotsuz texnologiyalar və avtonom sistemlər inkişaf etdirmək istəyi qaldığı və ABŞ-ın töhfəsi olmadığı müddətdə Ankaranın üz tutacağı yeganə yer Moskvadır. Ankara Moskva ilə əməkdaşlıq edərkən ABŞ Türkiyəyə mürəkkəb hərbi texnologiyalar təqdim etməkdən imtina edir. Müdafiə və təhlükəsizlik sahələrində Ankara ilə Vaşinqton arasındakı böhran nə qədər böyük olarsa, Ankara ilə Moskva arasındakı münasibətlər bir o qədər yaxınlaşacaq". Beləliklə, qeyd edilənlərdən bəlli olur ki, Azərbaycan yaxın tezlikdə Rusiyanın QLONASS-ı ilə idarə edilən Türkiyənin yeni pilotsuz döyüş aparatlarını ordusunun ixtiyarına verə bilər. Bu isə Azərbaycanın hərbi hava sahəsində üstünlüyünü artırmaqla Ermənistana vurulacaq növbəti zərbə sayılır.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Qarabağ münaqişəsinin həlli istiqamətində mühüm dəyişikliklər...

**Ermənistanda mütləq diktora çevrilən baş nazir Nikol Paşinyan hakimiyyət dayaqlarını möhkəmləndirmək üçün özünə rəqib saydığı bütün dairələri sıradan çıxarmaq yolunda indi ən sərt üsullardan belə faydalanmağa hazırlaşır. Hazırda görünən budur ki, baş verənlər fonunda ermənilərin millət və dövlət kimi formalaşmasında rol oynayan əsas amillərlə hakimiyyət arasında ciddi ziddiyyət yaranıb.**

Söhbət kilsə, Rusiya faktoru, diaspor və "Qarabağ klanı"ndan gedir. Nikol Paşinyanın diasporla münasibətləri kifayət qədər ziddiyyətlidir. Kilsə və Rusiya ilə münaisbətləri də olduqca gərgindir. "Qarabağ klanı" ilə onun arasında isə əsl düşmənçilik gedir.

Bütün bunların nəticəsi isə Ermənistan üçün fəlakətli hal sayılır. Əvvəla o baxımdan ki, diaspor, kilsə və Rusiya faktorunun aradan qalxması Ermənistanın bir dövlət olaraq tarixin arxivinə gömülməsini şərtləndirir. Çünki qeyd edilən amillər olmadan Ermənistanın bir dövlət olaraq varlığını davam etdirməsi sadəcə mümkünsüzdür. Ölkənin ehtiyatları, mövcud potensialı kənar yardımlar olmadan onun mövcudluğunu davam etdirməsinə imkan vermir. Bu mənada, yaranmış vəziyyət işğalçı ölkənin bir dövlət olaraq varlığını davam etməsini ciddi sual altına alır. Ekspertlər hesab edir ki, elə bu vəziyyət də Dağlıq Qarabağ münaqişəsinin həllində tamam yeni bir vəziyyət yaratmaq iqtidarındadır. Çünki varlığı artıq sual altına düşməkdə olan Ermənistanın işğal siyasətini davam etdirməsi mümküsüz sayılır.

Başqa bir tərəfdən, "Qarabağ klanı" və komandasının bir sıra üzvləri ilə düşmənçilik siyasəti yaşayan Paşinyanın onlara qarşı gedişləri Ermənistanda ciddi daxili qarşıdurmanın əsaslarını qoymaqdadır. Belə qarşıdurma da Ermənistanın əhəmiyyətli dərəcədə zəifləməsi və işğal siyasətini davam etdirməsinin daha da çətinləşməsi deməkdir. Belə görünür ki, ümumiyyətlə, qarşıdakı günlər ərzində Ermənistanı böyük daxili qarşıdurma gözləyir. Ən azından, Paşinyanın Los-Ancelesdə səsləndirdiyi fikirlər onun "Qarabağ klanı"na qarşı daha amansız olacağını göstərir. Bu xüsusda Paşinyan vurğulayır ki, "Qarabağ klanı"nın əsas təmsilçiləri olan Ermənistanın keçmiş prezidentləri Robert Köçəryan və Serj Sarkisyanın bundan belə ölkədə siyasi fəaliyyətləri ni davam etdirmək şansı yoxdur: "Ermənistan əhalisi həm Köçəryanın, həm də Sarkisyanın və tərəfdarlarının 2018-ci ildəki bütün bəyanatlarını şərh edib, bu günə qədər də qiymətləndirməyə davam edir. Bu adamlar başa düşmürlər ki, daha Ermənistanda siyasi fəaliyyətlərini davam etdirmək şansları yoxdur". Paşinyan eks-prezidentlərin və tərəfdarlarının "Köçəryan və Sərkisyanının erməni dövlətçiliyini qurmaq üçün tər tökdükləri barədə " ifadələrini əsassız adlandırıb: "Tər tökük nə ortaya çıxartdılar? Öz milyonlarını? Bəli, Əgər bunları demək istəyirlərsə, yaratdıqları "qəsrləri" və yığdıqları milyonları tezliklə itirəcəklərinə böyük təhlükə mövcuddur. Mən buna ümid edirəm. Əslində onlar yığdıqları milyonları çoxdan itirməli idilər, lakin hələ də böyük maliyyə və iqtisadi qaynaqlara sahibdirlər. Onların oğurladığı pullar son qəpiyinə kimi geri qaytarılacaq. Mən bundan öncə də dəfələrlə Serj Sarkisyanın ailəsinin korrupsiya yolu ilə dövlət büdcəsindən mənimsədikləri külli miqdarda pulları geri qaytarmağa borclu olduqları vurğulamışam. Artıq bir hissəsini geri qaytarıblar, ancaq indi qalan hissəsini geri qaytarmalıdırlar. Görəsən, Sarkisyanın ailəsi və Robert Köçəryan bu milyonları hansı qabiliyyətlə və necə əldə ediblər? Bunlar vunderkinddirlərmi? Bəs, indi niyə bu milyonları qazana bilmirlər? Biz onları narahat edirik? Onda pul qazanmaq üçün xaricə getsinlər". Paşinyanın sözlərinə görə, həm Köçəryanın, həm də Sarkisyanın maddi imkanları, siyasi ambisiyalarından asılı olmayaraq, 1998-ci ildəki status-kvoya qayıtmalıdır. Aydındır ki, "Qarabağ klanı" Paşinyanın məsələyə bu şəkildə yanaşmasını cavabsız qoymayacaq. Onların baş nazirə qarşı gedişləri isə Ermənistan daxilində vətəndaş müharibəsinin belə başlanmasını istisna etmir.

"1-in.am" portalı isə yazır ki, "Qarabağ klanı" ilə yanaşı, Paşinyan komandasının artıq keçmiş üzvlərilə qarşıdurma da Ermənistana müsbət heç nə vəd etmir: "Ermənistan Milli Təhlükəsizlik Xidməti (MTX) direktorunun müavini, polkovnik Eduard Martirosyan bu xidmətin direktoru vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Baş nazir eyni zamanda polis rəisinin birinci müavini, polkovnik Arman Sarkisyanın polis rəisi vəzifəsinin müvəqqti icraçısı təyin edildiyi barədə məlumat verib. Baş nazir deyib: "Məlumat verirəm ki, Ermənistan qanunvericiliyilə müəyyən edilən bu status və bu statusda olan bizim həmkarlarımız iki sistemə də rəhbərlik etmək üçün tam səlahiyyətə malikdirlər. Biz formal olaraq prezidentin müvafiq fərmanı imzalamasını və dərc etdirməsini gözləyirik". Ehtimal edilir ki, parlament qanunvericiliyə əlavə və dəyişikliklər edənə, polis rəisi və MTX direktoru vəzifəsi siyasi post olanadək baş nazir yanında olan bu xidmətlərə vəzifələri müvəqqəti icra edənlər rəhbərlik edəcək.

Sosial şəbəkələrdə son günlərin kadr dəyişiklikləri haqqında danışanların və böhranla, hətta hakimiyyətin ölümü ilə bağlı xəbərdarlıq edənlərin hamısını isə narahat edən olanların ölkə daxilində yaradacağı qarşıdurmadır. Artur Vanetsyanın və Valeri Osipyanın istefaları ilə inqilab komandası böhran keçirir. Bizim istəyib-istəməyimizdən asılı olmayaraq, MTX və polisdəki, demək olar ki, bütün yüksək rütbəli məmurlar öncəki sistemlə əlaqəlidir.

Paşinyan, mahiyyətcə, "yarımçıq mübarizə" mərhələsinin başa çatdığını elan edir, son kadr dəyişikliklərinin məntiqini də məhz bunda axtarır. Amma bunun yaradacağı qarşıdurmanı, görünür, Paşinyan əvvəldən hesablamayıb. Buna müvafiq olaraq, hakimiyyət zəifləyib, siyasi fəaliyyətin effektivliyinin yüksəldilməsi baxımından heç nə qazanmayıb. Paşinyanın bu gedişlərindən sonra, şübhəsiz, Ermənistanda daxili ziddiyyətlərin yüksəlməsi qaçılmaz olacaq. Çünki istefaya gedənlər revanşa hazırlaşır. Bu mənada payız, həqiqətən də, qaynar olacaq. İnqilabın "məxməri" qurtardı: Paşinyan qəti zərbə hazırlayır. Amma əks zərbələr Ermənistanı daha da zəiflədəcək"

Daxili qarşıdurmalarla yanaşı, Ermənistanın Rusiya ilə münasibətlərinin getdikcə pisləşməsi də artıq birmənalı həqiqətdir. Buna bir neçə faktor təsir edir. Onlardan biri budur ki, Ermənistanın keçmiş prezidenti Robert Köçəryanın həbsdə saxlanması İrəvanla Moskvanın münasibətlərini gərginləşdirən amillərdən sayılır. İkincisi, Paşinyan hakimiyyəti Rusiyanın maraqlarına zidd olaraq Qərblə, ABŞ-la yaxınlaşmaq kursundan imtina etməyib. Moskva isə bunu xoş qarşılamır. Eyni zamanda Ermənistanda Rusiya biznesinin sıxışdırılması da Moskva-İrəvan münasibətlərini gərginləşdirir. Başqa bir amil silah məsələsi ilə bağlıdır. Ermənistanın müdafiə naziri David Tonoyan bəyan edib ki, ölkəsi Rusiyadan silah alışını başqa dövlətlərlə də əvəz edə bilər. Rusiya hakimiyyətinə qarşı olanlara Ermənistanda sığıncaq verilməsi də Kremldə xoş qarşılanmır. Dövlət Dumasının deputatı Konstantin Zatulin isə Moskva-İrəvan münasibətlərini gərginləşdirən digər bir amilə toxunub. O, Ermənistan sürücülük vəsiqəsinin Rusiyada və əksinə istifadə edilməməsini mənfi hal sayıb. Avrasiya İqtisadi İttifaqına üzv dövlətlərin sürücülük vəsiqələrinin istifadəsi bir-birinin ərazisində yararlıdır. Ancaq Rusiya bu məsələdə bir şərt qoyub: rus dili ikinci dövlət dili olmayan üzv ölkələrin sürücülük vəsiqələri federasiyada etibarsızdır. Ermənistan yeganə ittifaq üzvüdür ki, rus dilinin dövlət statusu yoxdur. Konstantin Zatulin bunun qarşılıqlı münasibətlərə mənfi təsir etdiyini vurğulayır. Bütün bunlar Rusiyanın Ermənistana qarşı münasibətlərində ciddi dəyişikliklərə rəvac verir. Moskva artıq İrəvanın etibarlı tərəfdaş olmadığını aydın görür. Məhz bu durumda Rusiyanın Ermənistan üzərindən əlini çəkməsi qaçılmaz sayılır. Rusiya amilinin sıradan çıxması isə Ermənistanı daha da zəiflədən mühüm məqamlardan sayılır.

Burada maraq yaradan digər cəhət diaspor faktı ilə bağlıdır. Artıq diaspor da Paşinyan iqtidarına etibar etmir və baş nazirin ziddiyyətli açıqlamaları diasporu Ermənistandan uzaq salır. Burada onu da xatırladaq ki, Paşinyan diaspor komitəsini ləğv edəndə hətta kilsə də ona qarşı çıxdı. Ümumerməni katolikosu ona açıq məktub ünvanlayaraq, erməni diasporunun fəaliyyətini yüksək qiymətləndirmiş, komitəyə ehtiyacın olduğunu vurğulamışdı. Amma Paşinyan mövqeyindən geri çəkilmədi və elə o vaxtdan onunla diaspor arasında ziddiyyətlər dərinləşir.

Ermənistana diaspor yardımlarının azalması da bununla bağlıdır. Kilsə faktoru da burada öz sözünü deyir. Paşinyanın Los-Ancelesdə keçirdiyi mətbuat konfransında baş nazirin kilsə ilə münasibətlərindəki gərginliyin həllini tapmadığı məlum olub. O bildirib ki, Ermənistan xalqı hökumətin Ümumerməni Kilsəsinin daxili işlərinə qarışmağı tələb edərsə, hakimiyyət təcili olaraq bunu müzakirəyə çıxarıb uyğun addımlar atacaq. Kilsənin buna qarşı çıxması və Paşinyan əleyhinə fəaliyyəti isə hakimiyyətlə onun arasında ziddiyyətləri sadəcə dərinləşdirir. Bütün bunlar Ermənistanın böyük ziddiyyətlər dövrünə qədəm qoyduğunu da açıq nümayiş etdirir. Belə vəziyyətdə Ermənistanın onu ayaqda saxlayan əsas dayaqlardan məhrum olması isə onun bir dövlət kimi məhvə getməsini qaçılmaz edir. Elə bu da, öz növbəsində, İrəvanın mövcud Qarabağ siyasətini davam etdirməsini mümkünsüz hala gətirir. Aydındır ki, belə vəziyyət Qarabağ münaqişəsinin həllini əhəmiyyətli dərəcədə tezləşdirmək iqtidarındadır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Paşinyan premyerliyə gələndən ölkədə xarici investisiya ilə tikinti 20 faiz azalıb

**Ermənistanda hakimiyyət dəyişikliyindən sonra ölkə iqtisadiyyatında müşahidə olunan geriləmə davam edir. Paşinyanın ilyarımlıq baş nazirliyi dövründə bir sıra sahələrdə mövcud olan problemlər daha qabarıq formada özünü göstərir. Məsələn, xarici investorlar tərəfindən tikinti sektoruna qoyulan sərmayə həcminin kəskin azalması müşahidə edilib.**



Belə ki, xarici investisiyanın iştirakı ilə ölkədə tikintinin həcmi 19,8 faiz azalıb. İnvestisiyalar 2018-ci ilin birinci rübündə 94,3 milyon dollardan təxminən üç dəfə, keçən ilin dördüncü rübündə isə 67,7 milyon dollardan təxminən iki dəfə azdır.

2019-cu ilin birinci rübündə Ermənistana yatırılan birbaşa xarici investisiya axını 7,6 milyon dollar təşkil edib. Hansı ki, 2018-ci ilin ilk rübündə Ermənistana yatırılan birbaşa investisiyalar 83,6 milyon dollar təşkil edib.

Göründüyü kimi, Paşinyan hökumətinin ciddi səylərinə baxmayaraq, xarici sərmayələr ölkədən qaçır. Bir müddət əvvəl Paşinyan Ermənistanda akkreditə olunan xarici ölkələrin diplomatik nümayəndələri ilə görüşündə deyib ki, ölkənin ən böyük problemlərindən biri xarici investisiya ilə bağlıdır. Belə məlum olub ki, xarici sərmayədarlar ölkəyə investisiya qoymaqda maraqlı deyillər: "Biz ölkəmizdə xarici investisiyalar üçün ən cəlbedici şərait yaratmaq üçün əlimizdən gələni edirik".

## **Vüqar Bayramov:** *"Ermənistan iqtisadiyyatı regionda xarici investorlar üçün cəlbedici deyil"*

Bütün bu deyilənlərlə yanaşı, Ermənistan iqtisadiyyatının bir sıra sahələrində, xüsusən də tikinti sektorunda xarici investisiyanın həcmi niyə azalır?

Sözügedən məsələyə aydınlıq gətirən iqtisadçı-ekspert Vüqar Bayramovun sözlərinə görə, xarici investorların Ermənistana maraq göstərməməsi bir sıra amillərlə ələqədardır: "Bu gün Ermənistan bütün dünyada təkcə təcavüzkar kimi yox, həm də xarici yardımlardan asılı və kənardan kömək olmadan mövcudluğunu qoruyub saxlaması mümkünsüz olan bir dövlət kimi tanınır. Son illər Qərb ölkələri və erməni diasporu tərəfindən ayrılmış maliyyə vəsaitlərinin öz təyinatı üzrə istifadə olunmaması Ermənistana göstərilən yardımların ilbəil azalmasına gətirib çıxarıb. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və digər beynəlxalq maliyyə qurumlarından Ermənistana ayrılan kreditlərin də korrupsiyaya məruz qaldığı barədə xeyli fakt aşkar olunub. İşğalçı ölkə özünün reabilitasiya imkanlarını tamamilə itirib. Paşinyanın bir sıra cəhdlərinə baxmayaraq, xarici sərmayədarlar Ermənistan iqtisadiyyatına investisiya qoymaqda maraqlı deyillər. Səbəblərdən biri Ermənistan iqtisadiyyatının kiçik və rentabellik səviyyəsinin aşağı olmasıdır. Ermənistan iqtisadiyyatı regionda xarici investorlar üçün cəlbedici deyil".

*"İnşaat sektorunda xarici investisiyanın azalması iqtisadiyyatda bir durğunluğun olmasının göstəricisidir"*

V.Bayramov onu da qeyd etdi ki, Ermənistan iqtisadiyyatında Rusiyanın dominant rolu qalmaqdadır: "Ermənistana xaricdən pul köçürmələrin 75 faizi Rusiyanın payına düşür. Bununla belə, Rusiya Ermənistanda bəlli sektorlarda sərmayə qoyuluşları həyata keçirir. Ancaq son illər Rusiyadan gələn sərmayələr də azalıb. Xüsusən də ölkənin inşaat sektoruna qoyulan investisiyalar azalıb. İnşaat sektoru iqtisadiyyatdakı real vəziyyətin qiymətləndirilməsi baxımından çox vacib sahədir. İnşaat sektoru həm məşğulluğun çox olduğu sektordur, həm də dəyər və tələb yaradan sektordur. İnşaat sektorunda xarici investisiyanın azalması iqtisadiyyatda bir durğunluğun olmasının göstəricisidir. Çünki bu tendensiya real sektorda tələbin azalmasına gətirib çıxarır. Bütün bunlar həm də inam göstəricisini özündə ehtiva edir. Yəni bu o deməkdir ki, Ermənistan iqtisadiyyatına inam aşağı düşüb. Xarici investorlar qərar verərkən bir sıra meyarları nəzərə alırlar. Siyasi sabitliklə bağlı risqlərin hələ də qalması xarici sərmayədarları ölkəyə investisiya qoymaqdan çəkindirir. O baxımdan güman olunur ki, növbəti aylarda da Ermənistan iqtisadiyyatına qoyulan xarici sərmayələr azalacaq".

***Vidadi ORDAHALLI***

# Ermənistanda demoqrafik fəlakətə dair tutarlı sübut - "dilənçi" büdcə ilə hər doğulan uşağa 600 dollar müavinət...

**2020-ci ildə Ermənistanda uşağın doğulmasına görə verilən birdəfəlik müavinət məbləği 6 dəfə artırılacaq. Erməni saytlarının yaydığı məlumata görə, bu barədə jurnalistlərə açıqlamasında Ermənistan Baş nazirinin müavini Tiqran Avinyan bildirib.**



Hökumət rəsmisinin sözlərinə görə, 2020-ci ilin yanvar ayından etibarən ilk uşağın doğulmasına görə verilən birdəfəlik müavinət 6 dəfə artırılaraq 50 min dramdan (təxminən 103 dollar) 300 min drama (600 dollar) çatdırılacaq. İkinci uşağın doğulmasına görə verilən birdəfəlik müavinət də 150 min dramdan (306 dollar) 300 min drama (600 dollar) qədər artacaq.

Kənd yerlərində isə bu fərqli olacaq. Uşaq iki yaşına çatanadək ona hər ay 25,5 min dram (53 dollar) ödəniləcək. Həmçinin, 2020-ci ildən etibarən erməni dövləti uşağın doğulduğu ailələrə birdəfəlik yardım göstərəcək, onları ipoteka ilə təmin edəcək.

T.Avinyan bildirib ki, bütün belə tədbirlər həm də ölkədə artımın stimullaşdırılması məqsədilə edilir.

## **Aydın Mirzəzadə:** *"Bu kimi addımlarla Ermənistanda əhali artımını stimullaşdırmaq mümkün deyil"*

O da məlumdur ki, bu gün demoqrafik böhranla qarşılaşan ölkələrdən biri də Ermənistandır. Ermənistan əhalisi sürətlə azalır. Rəsmi statistikaya əsasən, 2016-cı ildə Ermənistanda 40.592 körpə dünyaya gəlibsə, 2018-ci ildə bu rəqəm 36.502 olub. Gənclərin, xüsusən də kişilərin nikaha girməkdə həvəsli olmadığı Ermənistanda doğum həddinin artımını gözləmək sadəlövhlük olar. Ermənistanın zəif iqtisadiyyatı gənclərdə və kişilərdə özünə inamı azaldır və onlar bu şərtlər altında ailənin minimal tələbatını ödəyə bilməyəcəklərini düşünürlər. Son 20-30 il ərzində ailələr bir neçə uşaq sahibi olmaq istəmədikləri üçün də əhali sayında azalma var. Ölkədə demoqrafik balansın pozulması səbəblərindən biri də gənclərin miqrasiyasıdır.

O baxımdan nə dərəcədə realdır ki, Ermənistanda uşağın doğulmasına görə verilən birdəfəlik müavinətin 600 dollara çatdırılması bu problemi həll edəcək?

*"Nəzərə almaq lazımdır ki, hazırkı dövlət büdcəsi ölkənin sosial ehtiyaclarını ödəmək iqtidarında deyil"*

Məsələyə münasibət bildirən millət vəkili Aydın Mirzəzadənin sözlərinə görə, bu kimi addımlarla Ermənistanda əhali artımını stimullaşdırmaq mümkün deyil: "Ermənistanda indiki hakimiyyət əhalinin sürətlə azalmasından çox narahatdır. Bu baxımdan əhali artımını stimullaşdırmaq üçün müxtəlif variantlardan istifadə edirlər. Sözügedən növbəti addım da gənc ailələri həvəsləndirməkdən ötrüdür. Ancaq məsələ ondadır ki, gənc ailə sonradan həmin uşağı nə ilə böyüdəcək? Uşağın səhiyyə məsələləri necə həll olunacaq? Yetkinlik yaşına çatanda iş tapa, ölkəsində normal yaşayış qura biləcəkmi? Bütün bu suallar açıq qalıb.

Ona görə də gənc ailələr imkan daxilində Ermənistandan kənara köçməyə üstünlük verirlər. Düşünmürəm ki, sözügedən birdəfəlik yardım əhali artımını stimullaşdırsın. Bu kimi addımlar onları xilas edə bilməyəcək. Nəzərə almaq lazımdır ki, Ermənistanın hazırkı dövlət büdcəsi ölkənin sosial ehtiyaclarını ödəmək iqtidarında deyil".

***Vidadi ORDAHALLI***

# Kremlin Ermənistana artıq yük kimi baxmasının nümayişi getdikcə güclənir

**Məlum olduğu kimi, "Rusiya Dəmir Yolları"nın (RDY) törəmə şirkəti olan "Cənubi Qafqaz Dəmir Yolları" Ermənistanı tərk etmək niyyətinə düşüb. Xatırladaq ki, Ermənistanda dəmir yollarının idarəçiliyi məhz "Cənubi Qafqaz Dəmir Yolları"nın (CQDY) tabeliyindədir. Bu günlərdə Rusiyanın "Kommersant" qəzeti də belə bir yazı ilə çıxış etmişdi ki, üzləşdiyi problemlər və təzyiqlər üzündən "Rusiya Dəmir Yolları" Ermənistanın dəmir yolu şəbəkəsinin idarə olunması ilə bağlı sazişi ləğv edə bilər.**

Digər tərəfdən, məlumata görə, Rusiya tərəfi İrəvanın "Cənubi Qafqaz Dəmir Yolları"nın işinə mane olduğunu bəyan edib.

Rusiya nəqliyyat nazirinin müavini Vladimir Tokarevin bildirdiyinə görə, Ermənistan "Cənubi Qafqaz Dəmir Yolları"nın normal işləyə bilməyəcəyi vəziyyət yaradıb. O həmçinin qeyd edib ki, "Cənubi Qafqaz Dəmir Yolları" Ermənistanla sazişin vaxtından əvvəl ləğvi ilə bağlı məsələnin ciddi şəkildə araşdırılmasına başlayıb. Baş verənlərlə bağlı Ermənistanın "Lragir" portalı isə yazır ki, Rusiya dəmir yollarının, ardınca isə digər rus biznesinin Ermənistanı tərk etməsi İrəvan üçün müsbət heç nə vəd etmir: "Rusiyanın Ermənistan dəmir yollarının istismarı ilə bağlı güzəştli müqavilədən imtina etmə ehtimalı Moskvanın Ermənistan kommunikasiyalarına geopolitik marağını itirməsilə bağlı ola bilər. Belə nəticəyə son 10-12 ildə regionda baş verən hadisələrin ardıcıllığına və Rusiyanın niyyətinə baxaraq gəlmək olar.

Hazırda regionda durum və Rusiyanın öncəlikləri 2006-cı illə müqayisədə köklü şəkildə dəyişib və mümkündür ki, Moskva artıq Ermənistan dəmir yollarına görə məsuliyyət daşımaq istəmir. Kreml bəyan edə bilməz ki, artıq Cənubi Qafqaz kommunikasiyaları onun üçün maraqlı deyil. Ona görə də yeni erməni hökumətinə qarşı iradlar irəli sürülür. Görünür, Rusiya müqavilənin Ermənistanın deyil, özünün şərtləri əsasında pozulmasını istəyir. Ermənistan dəmir yolları hansı şəraitdə Rusiyanın əlinə keçdi?

Dəmir yollarının idarəçiliyə verilməsi niyyəti hələ 2006-cı ilin oktyabrında elan olunmuşdu. 2007-ci ildə tender elan edildi və həmin tenderdə hind "Rail India Technical and Economic Services" (RITES) şirkəti ilə "Rusiya Dəmir Yolları" (RDY) iştirak etdi. Lakin hind şirkəti 2007-ci ilin dekabr ayının sonunda gözlənilmədən tenderdən çıxdığını elan etdi. Və 2008-ci ilin yanvarında məlum oldu ki, "Rusiya Dəmir Yolları" (RDY) tenderi udub. Müqavilə 13 fevral 2008-ci ildə, yəni Ermənistanda prezident seçkilərinə cəmi bir həftə qalmış imzalanıb. Bu seçki nəticəsində Robert Köçəryanı prezident postunda Serj Sarkisyan əvəzləyib. Rusiya Ermənistan dəmir yollarına sahib olmağı, yəqin ki, ambisiyalı regional məqsədlə qərara alıb. Xatırladaq ki, 2007-ci ilin noyabr ayında rus bazalarının Gürcüstandan çıxarılması başa çatdı və Bakı-Axalkalaki-Qars dəmir yolunun layihələndirilməsi işi başladı. İstisna edilmir ki, Gürcüstanda hərbi iştirakını itirən Rusiya o zaman Ermənistan vasitəsilə regionda təsirini bərpa etməyi və genişləndirməyi qərara alıb.

2008-ci ilin iyun ayında Serj Sarkisyan Moskvadan Türkiyə prezidenti Abdullah Gülü İrəvana dəvət etdi və "futbol diplomatiyası"nı işə saldı. Ekspertlər bu planı Ermənistanın baş tutmayan rus-türk inkorporasiyası cəhdi adlandırır. Bu proses Qars-Gümrü dəmir yolunun açılmasını da nəzərdə tuturdu. "Rusiya Dəmir Yolları"nın rəhbəri yolun Qarsadək olan hissəsinin bərpa edilməsi niyyətini gizlətmirdi və bu, Rusiyaya regional kommunikasiyalara nəzarət etmək imkanı verə bilərdi. Lakin bu baş vermədi. Serj Sarkisyanın Ermənistan-İran dəmir yolununun çəkilişi barədə olan layihəsi də həyata keçmədi. Bu layihənin iki marşrutu - biri Mehridən keçməklə, hansı ki, həddindən artıq baha başa gələrdi və heç kimi maraqlandırmazdı, ikincisi, Ermənistanla Azərbaycan arasında razılaşma əldə edildiyi təqdirdə Naxçıvandan keçməklə ola bilərdi.

Xatırladaq ki, həmin dövrdə Rusiya prezidenti Dmitri Medvedyev "kommunikasiyalar qarşılığında ərazilər" prinsipinə söykənən Qarbağda tənzimləmə planını aktiv şəkildə dəstəkləyirdi. Ancaq bu plan da işləmədi. 2016-cı ilin aprel müharibəsindən və Ermənistandakı 2018-ci il inqilabından sonra isə aydın oldu ki, rus planları öz aktuallığını itirib. Beləliklə, Naxçıvandan keçməklə Ermənistan-İran dəmir yolununun çəkilməsi də ümidsiz bir layihə oldu. 2019-cu ilin yayında Tiflisdə antirusiya etiraz aksiyalarının keçirilməsindən sonra Rusiyanın Abxaziya dəmir yolunun açılması ilə bağlı planları da uğursuzluğa düçar oldu. Rusiya hələ də Ermənistanda çoxlu aktivə sahibdir. Lakin regiona çıxış olmadan, bu aktivlər çox vaxt Rusiya üçün bir yük olur. Görünür, Kremldə hesab edirlər ki, öz üzərlərindən Ermənistan dəmir yollarının yükünü atmağın vaxtı çatıb". Rusiyanın Ermənistanın dəmir yollarından çıxması, qeyd olunduğu kimi, İrəvan üçün müsbət heç nə vəd etmir. Ümumiyyətlə, bu gedişlə Rusiya biznesinin Ermənistanı tamamilə tərk etməsi də gözlənilən hal sayılır. Bunun Rusiya prezidenti Vladimir Putinin İrəvana səfərindən sonra intensivləşməsi gözlənilir.




Çünki burada Nikol Paşinyan Putinə qarşı açıq düşmənçilik sərgiləmək niyyətindədir. Bu xüsusda Ermənistanın "politik.am" saytı yazır ki, Ermənistanın yeni hökuməti Vladimir Putinin İrəvana səfərinə iki cür hazırlaşır: həm rəsmi tədbirlər planlaşdırılır, həm də Putinə qarşı etiraz aksiyaları təşkil edilir. Saytın mənbəsi hakimiyyətin fərqli nümayəndələrinin Putinə qarşı etirazlarda iştirak edəcək gəncləri əlaqələndirdiyini bildirib. Aksiyalara Gürcüstandan da müxtəlif şəxslərin cəlb ediləcəyi vurğulanıb.

**Media aktivistlərin Putinə qarşı fəaliyyətini parlamentin "Mənim Addımım" blokundan olan deputat Ovanes Ovannesyanın, Gürcüstandan etirazçıların cəlbini Paşinyanın sədri olduğu "Mülki Müqavilə" Partiyasının üzvü Arsen Xaratyanın koordinasiya etdiyini yazıb. Aksiyalarda, həmçinin, "Sasna Tsrer" Partiyasının da nümayəndələrinin iştirak edəcəyi qeyd edilib. Təbii ki, bütün bunlar Moskvada da aydın sezilir və elə Rusiya biznesinin Ermənistandan çıxarılması da Kremlin bu ölkəyə cavab zərbəsi kimi mühüm əhəmiyyət daşıyır.**

*Tahir TAĞIYEV*

# Əqli Mülkiyyət Agentliyi şəxsi ad-soyadları da brend statusu ilə qeydə alır, məsələnin hüquqi mübahisəli tərəfləri...

***Adəm Məmmədov:** "Adların, soyadların əmtəə nişanı kimi qeydə alınması, yaxud patentləşdirilməsi qanunazidd bir haldır"*

***Elnur Məmmədli:** "Bu əmtəə nişanı şəxsi adların qorunması anlamına gəlmir, onu ehtiva etmir"*

**Adlar və soyadlar öz-özünə yaranmır, uzun tarixi proseslər keçərək öz mövcudluğunu qoruyur. Bu gün Azərbaycanda yaşı minillərlə ölçülən ad və soyadlar var ki, onlar bu gün də öz yaşamlarını davam etdirirlər. Son zamanlar ölkəmizdə bəzi ad və soyadlarla bağlı qəribə iddialar meydana çıxmağa başlayıb.**

Bəziləri "bu adın ilk daşıyıcısı mənəm" deyib adlarını müvafiq qurumlarda qeydiyyata aldırmağa çalışırlar. Onlar Əqli Mülkiyyət Agentliyinə müraciət edərək ad və soyadlarını əmtəə nişanı kimi qeydiyyata aldırırlar. Agentlikdən verilən məlumata görə, ad və soyadların əmtəə nişanı kimi qeydiyyata alınması üçün mütəmadi olaraq quruma müraciətlər daxil olur.

Əqli Mülkiyyət Agentliyindən verilən məlumata görə, cari il ərzində əmtəə nişanlarının qeydiyyata alınması üçün 1626 müraciət (iddia sənədləri) edilib. Həmin müraciətlərə agentliyin müvafiq şöbələri tərəfindən baxıldıqdan sonra 207 əmtəə nişanı qeydiyyata alınıb, 9-dan isə imtina edilib.

Agentlikdən bildirilib ki, vətəndaşlar da ad və soyadlarının əmtəə nişanı kimi qeydiyyata alınması üçün müraciət edirlər: "Vətəndaşlar tərəfindən ad və soyadların əmtəə nişanı kimi qeydiyyata alınmasına dair müraciətlər mütəmadi daxil olur".

Onu da vurğulayaq ki, Əməkdar artist Şəbnəm Tapdığın adı "İlk Şəbnəm" əmtəə nişanı kimi qeydiyyata alınıb. Belə ki, Əqli Mülkiyyət Agentliyi Əməkdar artist Şəbnəm Tapdığın adının əmtəə nişanı kimi qeydiyyata alınması üçün etdiyi müraciəti ilə bağlı qərar qəbul edib. Agentlikdən bildirilənə görə, Əməkdar artist "İlk Şəbnəm" adının əmtəə nişanı kimi qeydiyyata alınması üçün müraciət edib: "Əməkdar artist Tapdıqova Şəbnəm İlyas qızı iyunun 11-də təqdim etdiyi iddia sənədi ilə "İlk Şəbnəm" söz işarəsindən ibarət əmtəə nişanının Təsnifatın 41-ci sinfi üzrə (musiqili təqdimatların təqdim edilməsi xidməti üzrə) qeydiyyatına dair Əqli Mülkiyyət Agentliyinə müraciət edib. Müraciətə Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin Əmtəə nişanı, sənaye nümunəsi və coğrafi göstəricilərin ekspertizası şöbəsində baxılıb və onun qeydiyyatına dair Müşahidə Şurası tərəfindən 22 avqust 2019-cu il tarixli qərar qəbul edilib".

Agentlikdən bildirilib ki, qeydiyyata alınan əmtəə nişanı şəxsi adların qorunması kimi qəbul olunmur: "O, Təsnifatın qeydiyyata alındığı əmtəə və xidmətlər üzrə əmtəə nişana dair hüquqlarını ehtiva edir".

Qeyd edək ki, Əməkdar artist Şəbnəm Tapdıq 2019-cu il iyunun 11-də "İlk Şəbnəm" adının əmtəə nişanı kimi qeydiyyata alınması üçün Əqli Mülkiyyət Agentliyinə müraciət edib.

Ad və soyadların əmtəə nişanı kimi qeydiyyata alınması məsələsi cəmiyyətdə ciddi ajiotaj və geniş müzakirə yaradıb. Ümumiyyətlə, ad və soyadların əmtəə nişanı kimi qeydiyyata alınmasının özünün doğru olmadığı ilə bağlı fikirlər bildirilir. Ekspertlər qeyd edirlər ki, hər hansı bir adamın "bu adın ilk daşıyıcısı mənəm" deyib adını müvafiq qurumda əmtəə nişanı kimi qeydə aldırması cəmiyyətdə hərcmərclik yaratmaqla yanaşı, həm də bu iddiada olanların sayının artmasına gətirib çıxaracaq. Ekspertlərin fikrincə, ümumiyyətlə, adlar və soyadlar bu gün yaranmadığı üçün, onu patentləşdirmək, əmtəə nişanı kimi qeydiyyata aldırmaq düzgün deyil. Hüquqşünaslar hesab edirlər ki, bu, hüquqi baxımdan da qanunvericiliyə ziddir. Onların bildirdiyinə görə, bu gün kimlərinsə ad və soyadı Əqli Mülkiyyət Agentliyinin müvafiq şöbələri tərəfindən əmtəə nişanı kimi qeydiyyata alınırsa, sabah yüzlərlə insan ad və soyadlarını əmtəə nişanı kimi qeydiyyatdan keçirmək üçün quruma üz tutacaqlar, adlarını qeydiyyata aldırdıqdan sonra isə başqalarına bu adların verilməsinə qadağa qoyulmasını tələb edəcəklər. O adda hər hansı bir müəssisənin də fəaliyyət göstərməsinin qarşısının alınması üçün o adamlar məhkəmələrə üz tutacaq, bu da nəticədə ciddi problemlər yaradacaq. Hüquqşünaslar bildirirlər ki, ad və soyadların əmtəə nişanı kimi qeydiyyata alınması hüquqi baxımdan düzgün deyil.

Tanınmış hüquqşünas Adəm Məmmədov hesab edir ki, ad və soyadların əmtəə nişanı kimi qeydiyyata alınması qanunvericiliyə ziddir və bu, çox absurd bir addımdır. "Ad və soyadların əmtəə nişanı kimi qeydiyyata alınması o deməkdir ki, guya bu ad ilk dəfə ona məxsus olub. Dünya dəyişir və nə qədər ad, soyad var, böyük əksəriyyəti də qədimdən gəlir, hər birinin tarixi var. Heç kəs belə iddia edə bilməz ki, bu ad və soyad əmtəə nişanı kimi qeydiyyata alınsın. Belə məsələlər qanunvericiliklə deyil, təlimatla tənzimlənir. Adların, soyadların əmtəə nişanı kimi qeydə alınması, yaxud patentləşdirilməsi qanunazidd bir haldır. İstehsalatla, ixtiralarla, kəşflərlə bağlı məsələlər əmtəə nişanı kimi qeydiyyata alına bilər, amma ad və soyadla bağlı belə hal doğru deyil. Kiminsə öz ad və soyadını əmtəə nişanı kimi qeydiyyata aldırması ona heç bir hüquq vermir. Belə çıxır ki, onlardan başqa bu adı heç kəs daşıya bilməz. Bu absurddur. Həmin adda ölkəmizdə yüzlərlə adam ola bilər, sorğu versək görərik ki, bu iddiada olan adamlardan əvvəl də bu adları daşıyanlar olub. İnsan o halda adını, soyadını əmtəə nişanı kimi qeydiyyata aldıra bilər ki, həmin adı o yaradıb, o icad edib. Ümumiyyətlə, adlarını və soyadlarını əmtəə nişanı kimi qeydiyyata aldıranlar sabah o adın başqasına qoyulmasını qadağan edə bilməz, ümumiyyətlə, bu iddianı məhkəmə təmin etməz. Bu gün agentlik o ad və soyadları qeydiyyata ala bilər, amma sabah məhkəmə bu əmtəə nişanını rədd edəcək. Ad və soyadların əmtəə nişanı kimi qeydiyyata alınması bu addımı atan insanlara gələcəkdə heç bir üstünlük qazandırmayacaq" - deyə A.Məmmədov qeyd etdi.

Əqli Mülkiyyət Agentliyinin mətbuat xidmətinin rəhbəri Elnur Məmmədli da bizimlə söhbətində məsələyə ətraflı aydınlıq gətirdi. O qeyd etdi ki, ad və soyadların əmtəə nişanı kimi qeydiyyata alınması heç də həmin adamların adının, soyadının qorunması anlamına gəlmir: "İstənilən vətəndaş, hüquqi şəxs gəlib öz adına əmtəə nişanları təsnifatlarında müxtəlif siniflər üzrə göstərdikləri xidmətlər üzrə əmtəə nişanı ala bilər. Bu əmtəə nişanı şəxsi adların qorunmasını, onu ehtiva etmir. Bu yalnız siz hansı sinif üzrə əmtəə nişanını qeydiyyatdan keçirsəniz, o sahə üzrə əmtəə nişanı hüquqlarınız qorunacaq. Yəni buna nümunələr də var. Şirkətlər, yaxud fiziki şəxslər gəlib öz adları ilə əmtəə nişanı ala bilərlər. Məsələn, "Azad" şirniyyat evi var, bu bir əmtəə nişanıdır. Onun sahibi də bu şirniyyat evini öz adı ilə adlandırıb".

Müğənni Şəbnəb Tapdığın adının əmtə nişanı kimi qeydiyyata alınması məsələsinə də aydınlıq gətirən E.Məmmədovun sözlərinə görə, bu o demək deyil ki, bu adı başqa adam qoya bilməz. "Onun adı təsnifatın 41-ci sinfinə görə, yəni musiqi xidmətləri üzrə əmtəə nişanı kimi qeydiyyata alınıb. O bu sahə üzrədir. Bu əmtəə nişanları insan adlarının qorunması anlamına gəlmir. Bu yalnız həmin sinif, sahə üzrə əmtəə nişanları hüquqlarını bildirir. Məsələn, Hüseynova Mərziyyə adlı vətəndaş gəlib Mərziyyə adını əmtəə nişanı kimi qeydiyyata aldırıb. Yaşar Bağırov adlı əmtəə nişanı var. Yəni belə adlarla çox müraciət edilib. Ancaq, dediyim kimi, konkret olaraq hərəsi bir sahə üzrədir. Götürək "Jalə" sularını, şirələrini. Jalə qadın adıdır. Bu o demək deyil ki, heç kəs bundan sonra Jalə adından istifadə etməsin. Mineral suların istehsalı sahəsində "Jalə" adını yalnız o şirkətin istehsal etdiyi məhsul daşıya bilər.

Eləcə də "Sabina" parfüm şirkətinin adı. Bu şirkət qadın ətirləri və parfümeriya məhsulları sahəsində fəaliyyət göstərir, bu adda ikinci bir əmtəə nişanı ola bilməz. Hansı sinif üzrə qeydiyyata alınırlarsa, həmin əmtə nişanından başqa bir şirkətin istifadə etməsi olmaz. Bunun şəxsi adlara heç bir aidiyyəti yoxdur. Ümumiyyətlə, şəxs adları müəllif hüququ ilə qorunmur" - deyə E.Məmmədli bildirdi.

***İradə SARIYEVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# DOST mərkəzləri müasir Azərbaycanın siması kimi

**Bu gün Azərbaycan, sözün əsl mənasında, tam müstəqil siyasət yürüdən ölkədir. Müstəqil Azərbaycan dövlətinin öz siyasi dəst-xətti, dövlətçilik siması, inkişaf yolu var. Azərbaycanda hər bir vətəndaşın həyat səviyyəsinin daim yüksəlməsinə xidmət edən uğurlu sosial-iqtisadi siyasət həyata keçirilməkdədir.**

Məlumdur ki, Prezident İlham Əliyevin sosial sahə ilə bağlı inqilabi qərarları hər bir vətəndaşın və bütövlükdə, cəmiyyətin rifahını təmin edir. Daim ölkənin inkişafında sosial məsələlərin həlli ilə bağlı zəruri tədbirlər davam etdirilir, insan amili hər zaman diqqət mərkəzində saxlanır. Ölkə başçısı tərəfindən həyata keçirilən uğurlu sosial siyasət əhalinin rifah halının yaxşılaşdırılmasına, həssas qruplara dövlət qayğısının artırılması istiqamətində kompleks tədbirlərin ildən-ilə güclənməsinə, bu sahədə mühüm addımların atılmasına, ölkəmizdə etibarlı sosial müdafiə sisteminin formalaşmasına kömək edib.

Prezident İlham Əliyevin sosial sahədə etdiyi inqilabi yeniliklərdən biri də "ASAN xidmət"in analoqu sayıla biləcək Dayanıqlı və Operativ Sosial Təminat (DOST) mərkəzlərinin yaradılmasıdır.

Məlumat üçün bildirək ki, Azərbaycan Prezidentinin 9 avqust 2018-ci il tarixli "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanına uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) tabeliyində DOST Agentliyinin və mərkəzlərinin, habelə ölkə başçısının 5 sentyabr 2018-ci il tarixli Fərmanı ilə "e-sosial" internet portalının yaradılması nəzərdə tutulmuşdu. DOST Agentliyi və mərkəzlərinin fəaliyyətini təmin etmək məqsədilə bir sıra normativ-hüquqi aktların layihələri, habelə müvafiq təkliflərin hazırlanması işləri qısa zamanda başa çatdırılaraq aidiyyəti üzrə təqdim edilib.

Qeyd edək ki, dövlət başçısı İ.Əliyevin sosial islahatlar proqramının əsas hədəfi dövlətin sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsidir. Bu prinsiplərin icrası məqsədilə dövlət başçısının müvafiq Fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin və ilk DOST mərkəzinin inzibati binasının 9 may 2019-cu il tarixində Azərbaycan Respublikasının Prezidentinin iştirakı ilə açılışı həyata keçirilib.

### DOST-dakı könüllülük proqramı…

Məlumat üçün bildirək ki, DOST-da vətəndaşlara xidmət göstərən 40-dək əməkdaşı var. Bunlar sosial agentlərdir. Üstəlik, mərkəzdə 50-yə yaxın könüllü fəaliyyət göstərir. DOST-dakı könüllülük proqramı "Könüllü DOST" adlanır. Könüllülər mərkəzə gələn vətəndaşlara yaxınlaşır, onları xidmətlərə yönləndirirlər. Yaxud hər hansı bir müraciətin, ərizənin doldurulmasında yardımçı olurlar. Bu könüllülərsə üç kateqoriyaya bölünür: "Gənc Könüllü"; "Gümüşü Könüllü" (təqaüdə çıxan vətəndaşlar); həmçinin, "Virtual Könüllü".

Onu da qeyd edək ki, ən maraqlısı "Gümüşü Könüllü" layihəsidir. Belə ki, bu proqram pensiya yaşına çatmış şəxslərin aktiv həyat tərzinin təmin olunmasına dəstək məqsədi daşıyır. Yaşlı vətəndaşlar 1 saylı DOST mərkəzində könüllü kimi fəaliyyətə cəlb edilirlər. Beləliklə, mərkəz gənclərlə yanaşı, yaşlı nəslin də könüllülük fəaliyyətinə imkan yaradır. Təqaüdçü vətəndaşlar vaxtlarını səmərəli keçirmək üçün bura gəlirlər və gənclərlə çiyin-çiyinə çalışırlar, vətəndaşlara xidmət edirlər, həmçinin, təcrübələrini gənc kadrlarla paylaşırlar. Mərkəzə müraciət edən, xüsusi qayğıya ehtiyacı olan, narazı vətəndaşlarla məhz onlar - "Gümüşü Könüllü"lər, yeni müraciət edənlərin həmyaşıdları söhbət edirlər, zərurət yarananda onları sakitləşdirirlər

### DOST mərkəzləri innovativ yenilikləri özündə birləşdirən nadir layihədir

Məlumat üçün bildirək ki, DOST mərkəzləri əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə 126 xidmətin "bir pəncərə"dən təqdim edilməsinə imkan verən, əhatə dairəsi geniş olan, innovativ yenilikləri özündə birləşdirən nadir layihədir. Agentliyin 2019-2025-ci illərdə Bakıda və ölkəmizin regionlarında 31 DOST mərkəzinin istifadəyə verilməsi nəzərdə tutulub. Bundan əlavə, dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətcə yeni forması olan və vətəndaş məmnunluğunun prioritet elan edildiyi "ASAN xidmət" konsepsiyasına uyğun olaraq, xidmət mərkəzlərinin regionlarda sayının artırılması istiqamətində hesabat dövründə də müvafiq işlər həyata keçirilib, Tovuz, Şamaxı, Balakən, Kürdəmir və Ağcabədi regional "ASAN xidmət" mərkəzlərinin tikintisi istiqamətində işlər davam etdirilir.




### DOST Agentliyi əhalinin dostuna çevrilib

Millət vəkili Aydın Hüseynov bildirdi ki, Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST) əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahəsində qarşılaşdığı bir sıra problemləri həll edəcək: "Bu agentliyin yaradılması əhalinin sosial rifahının yüksəldilməsi istiqamətində atılan addımdır. Ölkədə Prezident İlham Əliyev tərəfindən aparılan siyasətin başlıca məqsədi Azərbaycan vətəndaşlarının maraqlarının müdafiə olunması, sosial rifahının yüksəldilməsidir. Xüsusilə sosial güzəştlər tələb olunan sahələrdə vətəndaşlarımıza - vətən müharibəsi əlilləri, Qarabağ müharibəsi veteranlarına yüksək diqqət göstərilir. Sosial təminata ehtiyacı olan əhalinin mənzil təminatının yaxşılaşdırılması, həyat şəraitinin yüksəldilməsi ilə əlaqədar mütəmadi tədbirlər görülür".

Millət vəkili onu da vurğuladı ki, son dövrlərdə bu sahədə əldə olunan uğurlarla yanaşı, müəyyən bürokratik əngəllərin olması hallarına da rast gəlinirdi: "Prezident İlham Əliyevin sərəncamı ilə yaradılan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi əlillik dərəcələrinin alınması, məşğulluq və sosial təminat sahələrindəki mövcud problemlərin həlli istiqamətində və digər məsələlərdə mühüm addımlar atır və atacaq. Bu məsələlərlə bağlı DOST-a böyük ümidlər var. Bu sahələr diqqət mərkəzində olacaq və yeni yaranan qurum adıçəkilən sahələrdəki problemin həllini öz üzərinə götürüb".

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü Musa Quliyev bildirdi ki, DOST mərkəzlərində vətəndaşların bütün sosial problemləri qısa müddət ərzində həll olunur. Onun sözlərinə görə, əhalinin xidmət sahələrində məmnunluğunun təmin edilməsi üçün məmur-vətəndaş münasibətinin minimuma endirilməsi, vətəndaşların müraciətlərinə yüksək mədəniyyətlə və şəfqətlə yanaşılması, eyni zamanda, bu müraciətlərə qısa müddət ərzində baxılması və təmin olunması vətəndaşın dövlətə olan inamını, sevgisini artıran amillərdir. Məhz buna görə Prezident İlham Əliyev sosial sahələrdə uzun müddət qalan problemlərin həlli üçün çox ciddi islahatların aparılmasına start verib.

Deputat onu da vurğuladı ki, ƏƏSMN-ə yeni rəhbər təyin olunandan sonra bu qurumda çox ciddi islahatların aparılması xüsusi diqqət çəkir: "Xüsusən də əhaliyə göstərilən sosial xidmətlərin elektronlaşdırılması, operativləşdirilməsi və bu sahədə vətəndaşlara dəstək verilməsi istiqamətində dünyanın qabaqcıl təcrübələri öyrənilir və tətbiq edilir. Bunlardan da biri DOST mərkəzlərinin yaradılmasıdır. Dövlət qurumlarına tapşırıqlar verilib ki, mərkəzlərin qısa müddət ərzində qurulması, işə düşməsi və əhaliyə xidmət göstərməsi təmin olunsun. DOST mərkəzlərinin mahiyyəti vətəndaşa layiqli, qısa müddət ərzində mədəni xidmət göstərmək, onların sosial ehtiyaclarını öyrənmək və bu ehtiyacların təmin olunması istiqamətində işlər görməkdir. Prezident çox doğru olaraq vurğulayır ki, DOST sosial sahədə "ASAN xidmət"in analoqudur. Bu, ən yeni yanaşma üsuludur, dünyada heç bir yerdə yoxdur. DOST mərkəzlərinin yaradılması ilə qısa müddətdə Azərbaycan vətəndaşları müsbət dəyişiklikləri hiss edəcəklər".

Həmsöhbətimiz onu da əlavə etdi ki, DOST Agentliyi əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahəsində qarşılaşdığı bir sıra problemləri həll edir və edəcək.

### DOST mərkəzləri sosial müdafiə sisteminin yeni konsepsiyası deməkdir

ƏƏSMN yanında İctimai Şuranın üzvü, "Konstitusiya Araşdırmalar Fondu"nun prezidenti Əliməmməd Nuriyev bildirdi ki, DOST mərkəzləri Azərbaycanda sosial müdafiə sisteminin inkişafı, təkmilləşdirilməsi və müasir standartlar səviyyəsində yenidən qurulmasında yeni bir mərhələ və ölkə təcrübəsində mühüm bir yenilikdir: "DOST mərkəzləri sosial müdafiə sisteminin yeni konsepsiyası deməkdir. Bu konsepsiya özündə müasir dövrün ən yeni tələblərini - innovativlik, vətəndaş məmnunluğu, ünvanlılığın təmin edilməsi, vaxta və resurslara qənaət, şəffaflığın təmin olunmasını ehtiva edir. Şübhəsiz ki, mühüm müsbət cəhətlərdən biri əlçatanlıqdır, inklüzivlikdir. DOST mərkəzləri sosial sahədə dövlət xidmətlərini operativ və vətəndaşın rahatlığı nəzərə alınaraq təqdim etməyə imkan yaradır. Bu, artıq yeni yanaşmadır və bir nöqtədən mərkəzləşdirilmiş qaydada xidmətlərin təqdim edilməsi vətəndaşlar üçün çox böyük rahatlıq yaradır. Bu, həmçinin, resurslara qənaət etməyə imkan verir, xidmətlərin göstərilməsini daim monitorinq etməyə, təkmilləşdirməyə, effektiv əks-əlaqə yaratmağa imkan verir. Bu, sui-istifadə hallarına, məmur özbaşınalığına qarşı da ən yaxşı sistemdir və bütün prosesi səmərəli şəkildə nəzarət altında saxlamaq imkanları var. DOST mərkəzləri hazırda bütün dünyada populyarlıq qazanan "sıfır bürokratiya və vətəndaş marağının təmin edilməsi" sistemlərinin uğurlu nümunələrindən biridir. Düşünürəm ki, DOST mərkəzlərinin yaradılması multipikativ effekt verəcək və digər sahələrə də müsbət təsir göstərəcək".

***Günel CƏLİLOVA***

**Yazı Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi birgə müsabiqəyə təqdim edilir.**

# Bakıda yeni dilənçilik "tryukları" - yaxşı geyim-kecim, xəstəxanaya pul, rayondan gələndə kisəni itirdim... sair...

***Fatimə Hacıbəyli:*** *"Dilənçi mafiyası görür ki, cır-cındır geyinmiş dilənçilər ictimai nəqliyyata buraxılmır, odur ki..."*

**Son dövrlər bir sıra insanlar dilənçiliyi özlərinə asan gəlir mənbəyi seçiblər. Bu gün dilənçiliklə məşğul olanların sırası get-gedə genişlənir. Bu da, sözsüz ki, cəmiyyət tərəfindən narazılıq və narahatlıqla qarşılanır. Əvvəllər dilənçi deyəndə daha çox qaraçılar yada düşürdü və dilənməyin qaraçılara xas olduğu hər kəsə məlum idi.**

Lakin indi küçə və meydanlarda, parklarda, metro ətraflarında, ticarət mərkəzlərində, ictimai nəqliyyatda dilənçilik edənlərin arasında qaraçılara elə də kütləvi rast gəlinmir.

İndi yeni dilənçi qrupu meydana çıxıb. Onlara xalq arasında "mədəni dilənçilər" deyilməyə başlayıb. Dilənçiliyin bu növü ilə məşğul olanlara isə hər yerdə rast gəlinir. Paytaxtımızda meydana çıxın "mədəni dilənçilər" səliqəli geyinmiş insanlardır. Onlar ictimai nəqliyyatda, metro ətrafında, park və küçələrdə insanlara yanaşaraq "əziz qardaşlar, bacılar, dilənçi deyiləm, rayondan gəlmişəm, pulumu itirmişəm, geri qayıtmağa yol pulum yoxdur, mənə yardım edin" deyirlər. Bundan əlavə, həmin şəxslərin leksikonu dilənçi leksikonudur. Onlar dilənərkən dilənçilərin işlətdikləri ifadələri işlədirlər. "Mədəni dilənçilər"i müxtəlif idarələrdə, restoran və şadlıq saraylları qarşısında da görmək olar. Onlar vəzifəli şəxslərin, imkanlı adamların qabağına qaçıb "kömək edin, rayona getməyə yol pulum yoxdur, burada qalmışam", yaxud "övladıma dərman almağa pulum yoxdur, mənə pul verin" deməklə, eləcə də digər vasitələrlə həmin şəxslərdən pul alırlar. Sözsüz ki, onlar da abırlarına qısılıb həmin adamlara pul verirlər. Bundan başqa, küçələrdə, parklarda adamlar peyda olub ki, özlərini xəstə kimi təqdim edib insanlardan pul istəyirlər.

Bu yaxınlarda parklardan birində şahidi olduğumuz bir hadisə, sözün həqiqi mənasında, bizi dəhşətə gətirdi. Olduqca səliqəli geyinmiş bir adam qarnını tutub ağaca söykənmişdi, bizə elə gəldi ki, onun vəziyyəti ağırdır, ona yaxınlaşıb halını soruşduqda dedi ki, mədəsində kəskin ağrı var və dərman almalıdır, pulu yoxdur. Sonra isə "siz hərəniz mənə 5 manat verin, gedim dərman alım" dedi. Biz isə təklif etdik ki, siz əyləşin, gedib lazım olan dərmanı alıb gətirərik. O buna kəskin etiraz edərək "yox, pulu verin, özüm alaram" dedi. Təbii, pul vermədik... Arxamızca həmin adam beşmərtəbə söyüşlər, qarğışlar yağdırdı. Bu, dilənçi xisləti deyil, bəs nədir?

"Mədəni dilənçi"liyin bundan başqa formaları da meydana çıxıb. Dünyasını dəyişən məşhur adamların qohumu olduqlarını iddia edən müəyyən adamlar var ki, onlar da küçə və meydanlarda peyda olublar. "Mən dilənçi deyiləm, filankəsin oğluyam, yaxud qızıyam, qardaşıyam, bacısıyam, mənə yardım edin" - deyirlər. Əlbəttə, bəlkə heç dilənən insanların mərhum məşhurlarla yaxından-uzaqdan heç bir əlaqəsi yoxdur, amma onların adlarından sui-istifadə edilir.

Bu yaxınlarda "20 Yanvar" metrostansiyasının yaxınlığında bir yaşlı qadın yanında gənc bir qız yoldan keçən hər kəsin qarşısını kəsib pul istəyirdi. Deyirdi ki, mən elə-belə adam deyiləm, atam vəzifəli olub, amma indi dərman almağa pulum yoxdur, mənə dəstək göstərin. Pul verənlərə dilənçisayağı alqışlar edən qadın, pul verməyib yan ötənlərə dilənçisayağı qarğışlar yağdırırdı.

"Vəfa" Sosial-İctimai Birliyinin sədri Fatimə Hacıbəyli bizimlə söhbətində bildirdi ki, bu gün cəmiyyətdə peyda olan "mədəni dilənçilər" dilənçi mafiyasının yeni əməlləridir. O təəssüflə qeyd etdi ki, "mədəni dilənçilər" ilk baxışdan adama normal insan kimi görünürlər, ağızlarını açanda isə onların dilənçiliyi özlərinə peşə seçdikləri məlum olur: "Dilənçilik bir sosial bəlaya çevrilib. Təəssüf ki, dilənçiliyi özlərinə peşə seçən adamların arasında "ziyalı" görkəmi olanlar da var. Bilirsiniz ki, dilənçiliklə mübarizə sahəsində ölkəmizdə bir sıra işlər görülür, dilənçilərin övladlarının təhsilə cəlb edilməsi isiqamətində də addımlar atılır, onlar müxtəlif sığınacaqlara da yerləşdirilirlər. Bu gün küçə və meydanlarda, xüsusən də avtobuslarda yeni dilənçilər qrupunun peyda olması diqqəti çəkir. Bu adamlar ilk baxışdan dilənçiyə bənzəmir, görkəmi, geyimkecimi normaldır. Onlar təzə kostyum, köynək, ayaqqabıda peyda olur və dilənirlər. Hesab edirəm ki, "mədəni dilənçilər"in meydana çıxması təsadüfi deyil. Dilənçi mafiyası görür ki, cır-cındır geyinmiş dilənçilər ictimai nəqliyyata buraxılmır, onların metrolara girişi qadağandır, odur ki, yaxşı geyim-kecimli adamları meydana buraxırlar, onlar dilənsin. Maraqlıdır, bu adamların çoxu deyir ki, rayondan gəlmişəm, yol pulumu itirmişəm. Yaxşı, 1-2 manat kimdənsə alıb avtovağzala, oradan da rayona getmək çox rahatdır. Yəni avtobusun pulunu rayona çatanda da vermək olar. Azərbaycanda sürücülər çox humanistdir, belə məsələlərə həssas yanaşırlar.

**Amma o dilənən insanların heç də məqsədi rayona qayıtmaq deyil, onlar dilənərkən rayon adamlarının adlarından istifadə edirlər. Çox təəssüf ki, beləleri az deyil və onlar camaatı aldadaraq gün ərzində külli miqdarda pul qazanırlar. Bəzən elə olur ki, bir avtobusa iki-üç elə adam minir və hamısı da eyni ssenari üzrə hərəkət edir. Əlbəttə, "mədəni dilənçi"liyin qarşısı alınmaldır. İnsanların dilənçiliyə cəlb edilməsi olduqca mənfi haldır".**

***İradə SARIYEVA***



*"Mədəni dilənçilər"in meydana çıxması təsadüfi deyil"*

**Məlumdur ki, 2020-ci ildən Azərbaycanda bütün ölkə üzrə icbari tibbi sığortanın tətbiqinə başlanacaq. Bu məqsədlə dövlət büdcəsindən 902,9 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Qeyd edək ki, Azərbaycanda icbari tibbi sığortanın pilot layihə şəklində tətbiqinə 2017-ci ildən başlanıb.**



# İcbari tibbi sığorta özəl tibb müəssisələrində qiymətlərə necə təsir edəcək...

## *Adil Qeybulla: "İcbari tibbi sığortanın tələbi nədən ibarətdirsə, özəl klinikalar da həmin tələbi yerinə yetirməli olacaqlar"*

Hazırda Mingəçevir şəhərində, Yevlax və Ağdaş rayonlarında icbari tibbi sığorta pilot layihə olaraq tətbiq edilir. Ümumilikdə, pilot ərazilərdə 370 min nəfərdən çox qeydiyyatda olan əhali və məcburi köçkün icbari tibbi sığortanın baza zərfindən ödənişsiz istifadə edir.

Xatırladaq ki, 2019-cu il yanvarın 31-də Prezident İlham Əliyev "Tibbi sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə Qanunun tətbiqini təmin etmək məqsədilə Fərman imzalayıb. Fərmana əsasən, 2020-ci il yanvarın 1-dən "Tibbi sığorta haqqında" Qanun qüvvəyə minəcək. Bununla da icbari tibbi sığortanın bütün ölkə üzrə tətbiqinə başlanacaq.

Məlumat üçün bildirək ki, İcbari Tibbi Sığortanın baza zərfinə, ümumilikdə, 1829 adda tibbi xidmət daxildir. Onlardan 480-ni ambulator, 677-sini stasionar, 6-sını təcili və təxirəsalınmaz, 18-ni ilkin səhiyyə, 23-nü isə fizioterapevtik tibbi xidmətlər təşkil edir. Həmçinin, layihə çərçivəsində 459 laborator müayinəyə və 166 həyati vacib - dəyəri yüksək olan xidmətlərə də təminat verilir.

Ölkənin səhiyyə sisteminin icbari tibbi sığortanın tələblərinə uyğunlaşdırılması məqsədilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən tibb müəssisələrinin ilkin qiymətləndirilməsi həyata keçirilib və nəticədə 2019-cu il üzrə görüləcək işlərə dair tədbirlər planı işlənib hazırlanıb. Tədbirlər planına uyğun olaraq, tibb müəssisələrinin elektronlaşdırılması, büdcələnməsi ilə bağlı zəruri işlərin görülməsi və informasiya texnologiyalarının geniş tətbiqi həyata keçirilir. Eyni zamanda, tibb müəssisələrinin icbari tibbi sığorta sisteminə keçidini təmin etmək məqsədilə tibb işçilərinin biliklərinin artırılması və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə bir sıra təlimlərin keçirilməsi planlaşdırılır.

Gələn ildən bütün ölkə üzrə icbari tibbi sığorta tam tətbiq olunacaq. Maraqlıdır, icbari tibbi sığorta tətbiq olunandan sonra bu hal özəl klinakalarda qiymət dəyişikliyinə səbəb ola bilərmi? Danılmaz faktdır ki, bu gün özəl xəstəxanalarda xəstə qəbulu, onun müayinəsi və müalicəsi dövlət xəstəxanalarına nisbətən bahadır. İcbari tibbi sığortanın tətbiqi özəl klinikalarda qiymət artımının qarşısını alacaqmı?

*"İcbari tibbi sığortaya ayrılan vəsaitlərdən istifadəyə ictimai nəzarət olmalı, mənimsəmələrə imkan verilməməli, vətəndaşlar bu sistemin faydasını görməlidirlər"*

Tibb elmləri doktoru, professor Adil Qeybulla bildirdi ki, icbari tibbi sığortanın tətbiqindən sonra ölkəmizdə tibb xidmətlərinin keyfiyyəti daha da artacaq: "Bütün dünya ölkələrində icbari tibbi sığorta tətbiq olunur və uğurla icra olunur. Bu səbəbdən də ölkəmizdə də icbari tibbi sığortanın tətbiqi vacibdir".

Həmsöhbətimizin sözlərinə görə, icbari tibbi sığortanın tətbiqi zamanı ilk vaxtlar qüsurların olması mümkün ola bilər: "İlk vaxtlar müəyyən qüsurların, çatışmazlığın olması mümkündür. Bu, hər sahədə olur. Tədricən çatışmazlıqlar aradan qaldırıla bilər. Əsas məsələ ayrılan vəsaitdən tam şəffaf istifadə edilməsidir. Ayrılan vəsaitlərdən istifadəyə ictimai nəzarət olmalı, mənimsəmələrə imkan verilməməli, vətəndaşlar bu sistemin faydasını görməlidirlər".

Professor onu da vurğuladı ki, icbari tibbi sığortanın bütün kontingenti müəyyən edilməlidir: "Dövlət büdcəsindən maliyyələşən, əmək birjalarından maliyyələşən, öz vəsaiti ilə maliyyələşən, xüsusi qaydada sığortalanan kateqoriyalar olmalıdır. Bunların hər birinin sığorta paketi fərqli ola bilər. Amma əsas sığorta paketinə daxil olan xidmətlər ilk növbədə təxirəsalınmaz yardım və doğuş olmalıdır. Bu xidmətlər sığorta paketində ilk növbədə nəzərə alınmalıdır. Digər xidmətlər imkan daxilində paketə daxil edilə bilər".

Ekspert hesab edir ki, icbari tibbi sığortanın tətbiqi özəl klinikalarda göstərilən tibb xidmətlərinin qiymətinə də təsir edəcək: "Özəl klinikalar da icbari tibbi sığorta ilə işləyəcəklər. İcbari tibbi sığortanın tələbi nədən ibarətdirsə, özəl klinikalar da həmin tələbi yerinə yetirməli olacaqlar".

***Günel CƏLİLOVA***

**Bazarda, küçələrdə meyvə qurularının, müxtəlif növ quru çərəzlərin qablaşdırılmadan açıq şəkildə satıldığına rast gəlirik. Təbii ki, açıq havada satışa çıxarılan çərəzlərə ətrafdan toz, mikroblar hopur. Elə çərəzlər var ki, onlar yuyula bilməz. Bu səbəbdən də həmin çərəzlərin açıq şəkildə satışı qadağandır.**



# Yol kənarlarında açıq çərəz satışları gigiyena normalarına uyğundurmu...

Ümumiyyətlə, meyvə qurusu və quru çərəzlər yalnız qablaşdırılmış formada satışa çıxarılmalıdır. Ancaq bazar və küçə ticarəti ilə məşğul olanlar çərəzlərin açıq formada satışını həyata keçirirlər.

Ümumiyyətlə, bazarlardakı quru meyvələrin əksəriyyəti normativ-texniki tələblər kobud şəkildə pozulmaqla alıcılara təklif olunur. Müvafiq qaydalara əsasən, qablaşdırılmayan məhsul açıq şəkildə satışa çıxarıla bilməz. Normativ-texniki sənədlərin tələblərinə əsasən, quru meyvələrin qablaşdırılmasında istehsalçı müəssisənin adı və ünvanı, məhsulun adı, növü, çəkisi, istehsal tarixi, yararlılıq müddəti, enerji dəyəri və texniki sənədləşdirmənin nömrəsi barədə məlumatlar qeyd edilməlidir.

Məsələ ilə bağlı fikir bildirən Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Nazirlər Kabinetinin qərarına əsasən, Azərbaycan əmtəə bazarında satılan məhsullar qablaşdırılmalıdır. Həmin məhsulların üzərində istehsal tarixi, son istifadə müddəti qeyd olunmalıdır. Həmçinin, istehsalçının adı və ünvanı qeyd olunmalıdır: "Çox təəssüflər olsun ki, quru meyvələr satılan yerlərdə Nazirlər Kabinetinin məlum qərarı icra olunmur. Əksər hallarda, istehlakçılara vaxtı ötmüş quru meyvələr satılır. O məhsullara diqqətlə fikir verilsə, onların tərkibinin artıq kiflləndiyini və xırda qurdlarla zəngin olduğunu müşahidə etmək olar. Bu işlərlə məşğul olan qurumlar problemə, demək olar ki, biganəlik nümayiş etdirirlər. Nazirlər Kabinetinin 94 saylı qərarı həyata keçirilmir".

***Eyyub Hüseynov:** "...onların tərkibinin artıq kifləndiyini və xırda qurdlarla zəngin olduğunu müşahidə etmək olar"*

***Rasif Bağırov:** "Açıq şəkildə satılan quru meyvələr və çərəzlər qaraciyər xərçəngi risqi daşıyır"*

Həmsöhbətimiz onu da bildirdi ki, qərara əməl etməyib, quru meyvələrin açıq şəkildə satışı ilə məşğul olanlar, qanunvericiliyin tələbinə uyğun olaraq, 400 manat civarında cərimələnə bilər.

Həkim-ekspert Rasif Bağırov bizimlə söhbətində bildirdi ki, açıq şəkildə satılan quru meyvələr və çərəzlər qaraciyər xərçəngi risqi daşıyır. Çünki bu məhsullar istehsal zamanı göbələk və bakteriyalardan qorunmaq üçün bir sıra maddələrin təsirinə məruz qalırlar. Bu maddələr isə birbaşa olaraq qaraciyərə pis təsir edir: "Ən çox bayramlarda alınan qoz və fındıq, badam və digər çərəzlərin açıq halda, küçədə, yol kənarında satılması təhlükəlidir".

***Günel CƏLİLOVA***

№ 171 (4069) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

26 SENTYABR 2019-cu il

www.baki-xeber.com

# Kosmosdakı soyuqdan yenilənə bilən enerji yaradıldı



**Əlimizdəki təbii qaynaqları istehlak etdikcə yenilənə bilən enerji axtarışımız davam edir. Bu məzmunda fərqli sahələr kəşf etməyi ümid edən elm adamları, kosmosun soyuğunu istifadə edərək enerji yarada bildilər. Həm də 30 dollarlıq bir alət ilə.**

Yenilənə bilən enerjiyə qarşı olan sevgi, heç olmadığı qədər çoxdur. Bunun səbəbi isə aydındır: təbii qaynaqlarımız məhduddur və biz bir gün bunları bitirəcəyik. Buna görə bir çox şirkət günəş, külək və sudan yenilənə bilən enerji istifadəsinə keçmək üçün səy sərf edir. "Deyerler.org" bildirir ki, bəs, bu qaynaqlardan başqa, nə kimi yenilənə bilən enerji qaynaqları var? Görünən odur ki, kosmos boşluğundakı dondurucu soyuq da bir qaynaq olaraq istifadə edilə bilərmiş. Keçən cümə axşamı Kaliforniya Universitetinin araşdırmaçıları nəşr etdiyi bir araşdırmada, 30 dollarlıq bir cihaz istifadə edərək kosmosun soyuqluğunu enerjiyə çevirə biləcəyəni göstərdi. Araşdırmaçıların istifadə etdiyi və belə bir iş üçün pulsuz deyilə biləcək bir alət ilə, bir lampanı işıqlandırmağa çatacaq olan enerji yaradıldı. Hər nə qədər bir şəhərin, bölgənin ya da bir evin elektrikini bu üsulu istifadə edərək təqdim etmək bu an üçün mümkün olmasa da, texnologiyanın ciddi bir potensialı var.

## Elan

Şəki şəhər sakini Abbasova Səkinə Məmmədmirzə qızının adına verilmiş 22 mart 1993-cü il tarixli 1359/158 saylı ev qeydiyyat vəsiqəsi itdiyindən etibarsız hesab edilir.

Kazımov Musaxan Şamməd oğlunun adına, Bakı şəhəri, Xətai rayonu, Əhmədli şosesi 7 ünvanında yerləşən iaşə obyekti: "Kompleks" kooperativinə məxsus şəhadətnamə və texniki pasport itdiyi üçün etibarsız sayılır.

Hacıyev Sarvan Əbilxan oğluna verilən Əfqanıstan müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Mustafayev Rəsul Murtuz oğluna Azərbaycan Memarlıq və İnşaat Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Museyibli Könül Qənbər qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Həsənova Jalə Fikrət qızına Azərbaycan İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Həsənova Jalə Anar qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Rzayev Ələsgər Qədir oğluna İmişli RPŞ tərəfindən verilmiş şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Bayramov Kamet Soltan oğlunun adına verilmiş Qarabağ müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əzimov Ağalar Böyükağa oğlunun adına, Bakı şəhəri, Sabunçu rayonu, Ləhiş Bağlar sahəsi, №6531 bağın çıxarışı (kupça), plan, ölçü və digər sənədlər itdiyi üçün etibarsız sayılır.

Hüseynov Vüqar Teyyub oğlunun adına, Abşeron rayonu, Fatmayı kəndində yerləşən, hər 2-si 0.08 ha olmaqla torpaq sahəsinin çıxarışları itdiyi üçün etibarsız sayılır (AA0739916).

## "Bakcell" qadınların məşğulluğunun artırılmasına dəstək olur

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkətinin dəstəyilə həyata keçirilən növbəti layihə regionlarda yaşayan qadınlara öz bizneslərini qurmaq üçün zəruri bilik və bacarıqlara yiyələnməkdə kömək edir.**



"İnformasiya texnologiyaları vasitəsilə Salyan və Sabirabadda qadınların liderlik bacarığının artırılması" layihəsinin əsas məqsədi adıçəkilən rayonlarda qadınları İKT alətləri ilə tanış etmək, bu sahədə onların bilik və bacarıqlarını artırmaq və yeni texnologiyalar vasitəsilə qadınların liderlik bacarıqlarının inkişafına dəstək göstərməkdir. Bu məqsədlə qadınlar üçün "Şəbəkələşmə", "Məşğulluq, peşə və əlavə gəlir", "Karyera planlaması", "Daxili motivasiya və hədəflərinə çatma" və digər mövzularda seminar və vebinarlar təşkil olunub. Layihə çərçivəsində yaradılan www.azqrm.net portalında bacarıqların artırılması ilə bağlı vebinarlar və fərdi inkişafla bağlı digər faydalı məlumatlar yerləşdirilib. Bu portal vasitəsilə hər iki rayonun QRM üzvləri Mərkəzə gəlmədən məşğulluq və bizneslə məşğul olmaqla bağlı məlumat mübadiləsi apara biləcəklər.

Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi (AQUPDK) və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) tərəfindən yaradılmış Sabirabad Qadın Resurs Mərkəzinin nəzdində yaradılan "Sabirabadda Qadınların Sosial İnkişafına Dəstək" İctimai Birliyinin "Bakcell"in dəstəyilə icra etdiyi layihə Sabirabadda 95, Salyanda isə 84-dən çox iştirakçını əhatə edib. Onlardan 6 nəfəri yaşadıqları rayonlarda şəxsi bizneslərinə başlamaq üçün ilk addımlarını atıblar.

"Bakcell" şirkəti özünün genişmiqyaslı Korporativ Sosial Məsuliyyət (KSM) proqramı çərçivəsində qadın məşğulluğunun və sahibkarlıq fəaliyyətinin inkişafına dəstək verir.





**Qoç** - Dostlarla ünsiyyət və birgə fəaliyyətin intensivləşdirilməsi üçün yaxşı gündür. İşləmək əvəzinə düşünməyə və xəyallara üstünlük verməyin. Fəaliyyətinizə bir qədər ara verin, amma istirahət uzun çəkməsin.



**Buğa** - Yaranmış problemlərin həllini uzatmayın. Cari məsələlərin çözümündə diqqətli olun, sayıq davranın. Yaxınlarınızdan biri ilə münasibətlərdə problemlərin formalaşması istisna deyil.



**Əkizlər** - Həftənin ən uğurlu günlərindən biri deyil. Cəhdləriniz və əməyinizin məhsuldarlığı planlarınızın reallığından asılıdır. Yaxın ətrafınızdakı insanlardan biri etimadı doğrultmaya bilər.



**Xərçəng** - Təmkinli və sayıq olun. Düşünülməmiş addımlar atmayın. Radikallıq, aqressivlik zamanı deyil. Səbrli davranın. Cari işləri və rutin problemləri həll etmədən irəliləmək mümkün deyil.



**Şir** - Günün ilk yarısında əhvalınız pisləşə bilər. Neqativ hisslərin əsiri olmayın. Kiçik diskomfort sizi təbdən çıxarmasın. Yaxın ətrafınızdakı insanları narahat edən məsələlərin fərqinə varın.



**Qız** - Həmkarlar və işgüzar tərəfdaşlarla bir sıra məsələləri həll etmək, münasibətləri rəvanlaşdırmaq üçün əlverişli gündür. Lakin vaxtınızı hədər itirməsəniz, məhsuldar ola bilər.



**Tərəzi** - İşgüzar məsələlərin həlli üçün uğurlu gündür. Yaşam potensialının səviyyəsi yüksəkdir, enerjiniz və ruhi qüvvəniz çoxdur. Uğura nail olmaq üçün bütün komponentlər var. Yeni, çətin və mürəkkəb işlər peyda olur.



**Əqrəb** - Aqressiv, davakar olmayın. Sərt danışıqlar zərər verə bilər. Güzəştlərə meylli olun. Açıq hücum heç də həmişə qələbənin rəhni deyil. Kobud taktika, izafi sərtlik qarşı tərəfdə də qeyri-adekvat davranışa səbəb olacaq.



**Oxatan** - Günün ilk yarısında işlərdə çətinliklər yaranacaq. Ən kiçik uğurun önəmi artacaq. Texniki detallar və təfərrüatlar hədəfə doğru irəliləyişinizi çətinləşdirə bilər. Diqqətli olun, bədxahların məkrli planlarına aldanmayın.



**Oğlaq** - Günün ilk yarısında qarşınıza qoyduğunuz məqsədə çatmaq üçün maksimal sürət və intensivliklə çalışın. Sizi narahat edən məsələni çözmək üçün təcrübəli, bilikli insanla məsləhətləşin.



**Dolça** - Günün ilk yarısında yaxın ətrafınızdakı insanlarla ünsiyyətdə çətinliklər yaranacaq. Davranışınıza nəzarət edin. Həmkarlarınız sizinlə danışıqlarda izafi kəlmələr söyləyə bilərlər.



**Balıqlar** - Günün ilk yarısı asan olmayacaq. Cari problemlərin həllində ciddi çətinliklərlə qarşılaşa bilərsiniz. Hətta ən adi, "alışdığınız" məişət problemlərinin çözümündə yeni maneələr və sədlər yaranacaq.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## 9 yaşında bilib övladlığa götürdülər, 30 yaşında manyak "cücə" çıxdı

**ABŞ-da doqquz il əvvəl övladlığa götürən şəxslər qorxunc hadisə ilə üzləşiblər.**

Belə ki, Kristin və Mişel adlı ər-arvadın doqquz yaşında olduğunu zənn edib övladlığa götürdükləri qızın "cücə" olduğu ortaya çıxıb. Məlumatda bildirilir ki, bir müddət sonra ukraynalı cütlük qızın hərəkətlərindən şübhələnməyə başlayıblar. Həkimə müraciət edən ər-arvad Natali adlı qızın ən azı 14 yaşında olduğunu öyrəniblər. "Oxu.az" xəbər verir ki, bu barədə "Daily Mail"ə danışan Kristin Natalinin qəribə şəkillər çəkdiyini, qızın ailə üzvlərini öldürüb basdırmaq istədiyini bildirib. Həmçinin, qeyd edib ki, Natalini onun qəhvəsinə xlor tökərkən görüb. Bu zaman qadın Natalidən nə etdiyini soruşduqda - "səni zəhərləməyə çalışıram" cavabını verib. Həkimlərin apardığı araşdırmalar nəticəsində Natalinin 1989-cu il təvəllüdlü olduğu və psixi sağlamlığının yerində olmadığı müəyyənləşib. İndi Kanadada yaşayan qız psixoloji yardım almasına baxmayaraq, yenə də özünü uşaq kimi aparır.

*Hazırladı: Ramil QULİYEV*


Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**
Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.